RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 25 (8618) CÜMƏ AXŞAMI, 4 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev növbəti 10 il üçün Milli Prioritetləri təsdiq etdi

## Rəqabətqabiliyyətli iqtisadiyyat, ədalətli cəmiyyət, müasir innovasiyalar, böyük qayıdış və təmiz ətraf mühit

**Son 17 ildə Azərbaycan iqtisadiyyatı dinamik inkişaf etmiş, ölkədə geniş sosial infrastruktur yaradılmış, əhalinin sayı artmış, yoxsulluğun səviyyəsi aşağı düşmüşdür. Maliyyə imkanlarının artması Azərbaycanı yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmləndirmişdir.**

İqtisadi gücü Azərbaycanın hərbi qüdrətini də artırmışdır. Bu, torpaqlarımızın işğaldan azad edilməsində və ölkəmizin ərazi bütövlüyünün bərpasında həlledici amillərdən olmuşdur. Əldə edilmiş qələbə indi yeni, sistemli və davamlı islahatlara yol açır. Koronavirus pandemiyası ilə aparılan səmərəli mübarizə, ümumdövlət məqsədləri naminə həmrəylik təcrübəsi və ərazi bütövlüyünün bərpası irimiqyaslı və dərin islahatların aparılmasına zəruri əsasları gücləndirir.

Həyata keçirilən sosial-iqtisadi quruculuq uzunmüddətli dövrdə Azərbaycanın yeni inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına möhkəm zəmin yaratmışdır. Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021/2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də məhz bu mərhələdə qarşıda duran ən ümdə vəzifələr müəyyənləşdirilmişdir. Dövlət başçısı öz sərəncamı ilə bu prioritetləri təsdiq etmişdir. Sərəncamda bildirilir ki, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir.

Bu məqsədlə növbəti onillikdə beş milli prioritet reallaşdırılmalıdır. Ölkənin sosial-iqtisadi inkişafına yönəldilən həmin prioritetlərin birincisi dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyata nail olmaqdır. İkinci hədəf dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılmasıdır. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması prioritetlərin üçüncü sırasında dayanır. Dördüncü taleyüklü məsələ işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın təmin olunmasıdır. Nəhayət, beşinci prioritet Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi də şöhrətlənməsidir.

Prioritetlərə əsasən, uzunmüddətli dövrdə iqtisadi artım sağlam və tarazlı olmalıdır. Çünki məhz belə iqtisadi artım ölkənin davamlı inkişafı üçün vacibdir, o, eləcə də daxili və xarici təsirlərə dayanıqlığı təmin edir. İqtisadi artım həmçinin vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. İqtisadiyyat davamlı və yüksək templərlə artdıqda ölkədə adambaşına düşən milli gəlir yüksəlir. Yəni iqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin edir.

Ardı 4-cü səh.

# Yəhudilər Azərbaycanda əsrlərboyu mehribanlıq, qardaşlıq və dostluq şəraitində yaşayıblar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri videoformatda qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Mark Şnayer ölkəmizdə digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Müsəlman ölkələri arasında ən böyük yəhudi icmasının Azərbaycanda yaşadığını vurğulayan Mark Şnayer Prezident İlham Əliyevin digər icmalarla yanaşı, yəhudilərə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi.

Dövlət başçısı yəhudilərin ölkəmizin dəyərli vətəndaşları olduqlarını qeyd etdi, digər dini və etnik icmaların nümayəndələri kimi onların da Azərbaycanda əsrlərboyu mehribanlıq, qardaşlıq və dostluq şəraitində yaşadıqlarını bildirdi.

Söhbət zamanı mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanla ABŞ əlaqələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Tərəfdaşlarımızın həyata keçirdikləri layihələr sənayemizin qeyri-enerji sektorunun artırılmasına kömək edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüş iştirakçılarını salamladı.

**Prezident İlham ƏLİYEV:** Sabahınız xeyir.

**Nümayəndə heyətinin üzvləri:** Sabahınız xeyir, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Sizi görməyə çox şadam.

"Maire Tecnimont Group"un sədri **Fabrizio Dİ AMATO** dedi:

- Sabahınız xeyir, cənab Prezident. Bu səhər bizimlə görüşmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. 2018-ci ildəki açılış mərasimindən sonra biz yenidən Azərbaycana səfərə gəlmişik. Bu gün səfirimiz və "Maire Tecnimont" şirkətinin heyəti ilə Bakıda olmağımızdan şərəf duyuruq.

Ardı 2-ci səh.



# Hər kəs qaydalara məsuliyyətlə yanaşmağa davam etməlidir

**Dünyanı çənginə alan koronavirus sərt karantin tədbirlərinə, müalicə metodlarına və peyvəndlənmə prosesinin başlanmasına rəğmən, hələ də yayılmaqda davam edir. Artıq bu təhlükəli infeksiyaya yoluxanların sayı 103 milyon, ölənlərin sayı 2,3 milyon nəfərə çatıb.**

COVID-19 virusuna ən çox yoluxma yenə də ABŞ-da qeydə alınıb. Daha sonra bu sırada Hindistan, Braziliya, Rusiya, Böyük Britaniya, Fransa, İspaniya, İtaliya, Türkiyə, Almaniya, Kolumbiya və Argentina gəlir.

Bu bir həqiqətdir ki, dünya pandemiyadan qurtulmayınca, tək bir ölkənin ona qalib gəlməsi mümkün deyil. Pandemiyanın tamamilə aradan qaldırılması üçün kütləvi immunitetin formalaşması lazımdır. Bunun üçün də ən əlverişli yol vaksinasiyadır. Artıq dekabrdan dünyanın 50-dən çox ölkəsində COVID-19 əleyhinə peyvəndləmə aparılır. Təxminən bir ay yarım vaxt keçdiyinə görə peyvəndin yan təsirləri ilə bağlı araşdırmalar aparılır. İndi bütün ölkələr peyvənddən sonrakı yan təsirləri ciddi şəkildə izləyir, mütəxəssislər nəticələri təhlil edirlər. Sevindirici odur ki, hazırkı dövrədək aparılan vaksinləmə prosesi zamanı ciddi yan təsirlər aşkarlanmayıb. Bəzi faktlar olsa da, onlar araşdırılaraq peyvəndlə bağlılığının olmadığı müəyyənləşdirilib. Mütəxəssislər hesab edirlər ki, peyvəndin uzunmüddətli təsirinin öyrənilməsi üçün müəyyən qədər zamana ehtiyac var.

Ardı 5-ci səh.

# Bütün yeni yollar Qarabağdan keçir




**Dörd ay öncə bütün dünya Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarını diqqətlə izləyirdi. İndi isə hamının diqqəti ölkəmizin Qarabağı dirçəltmək üçün gördüyü işlərə yönəlib.**

Axı, adətən müharibələrdən sonra bərpa-quruculuq işləri ön plana keçir. Bu proses ölkəmiz üçün ikiqat önəmlidir. Çünki biz erməni işğalçılarının viran qoyduğu ərazilərdə bərpa-quruculuq işlərini aparmaqla, həm də dünyaya Qarabağın kimə məxsus olduğunu göstəririk.

Artıq Prezidentin tapşırığı ilə işğaldan azad olunmuş ərazilərdə müxtəlif dövlət qurumları tərəfindən bərpa-quruculuq işlərinə başlanıb. Həmin qurumlardan biri də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyidir.

Ərazilərin bərpasında avtomobil yollarının xüsusi əhəmiyyəti danılmazdır. Çünki yol həm iqtisadi, həm də sosial mahiyyət daşıyır. Bu mənada nəqliyyat infrastrukturunun bərpasında, ilk növbədə, avtomobil yollarının çəkilməsi təsadüfi deyil. Füzulidən Şuşaya çəkilən 101,5 kilometrlik avtomobil yolunun isə həm də siyasi və rəmzi mənası var. Siyasi əhəmiyyəti məlumdur, rəmzi mənası isə odur ki, Şuşa tarixboyu Qarabağın tacı və mədəniyyət beşiyi olub. İndi erməniləri ən çox narahat edən məsələ Şuşanın Prezidentimiz tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsidir.

Ardı 4-cü səh.

# Ermənistanda dövlət idarəçiliyi iflic olub

**Ermənistandakı böhranlı vəziyyət bütün sahələrdə daha qabarıq görünməkdədir. Hakimiyyət əleyhinə yönələn etirazların sayının çoxalması, vətəndaş itaətsizliyi idarəçiliyə də mənfi təsir edir. Ölkədə iqtisadiyyatın tənəzzülü də günbəgün dərinləşir, yoxsulluğun səviyyəsi yüksəlir.**

Yerevanda hakimiyyətin istefası tələbi ilə keçirilən mitinqlər isə artıq gündəlik normaya çevrilib. Son aksiyalardan biri parlament binası qarşısında keçirilib. Müxalifətin təşkil etdiyi aksiyada 20-dək siyasi partiyanın nümayəndəsi iştirak edib. Onlar parlamentin baxacağı məhkəmə məcəlləsində dəyişiklik və əlavələri nəzərdə tutan layihəyə etirazlarını bildiriblər. Layihəyə əsasən hökumət birinci instansiya məhkəmələrində hakimlərin sayını 8-i Yerevandan olmaqla 17 nəfərə qədər artırmağı təklif edir. Apellyasiya Məhkəməsində isə 3 ştatın əlavə olunması planlaşdırılır. Ermənistanın keçmiş ədliyyə naziri Armine Ovannisyan bu qanun layihəsinin "siyasi, antikonstitusion, qanuna zidd və əxlaqsız" olduğunu söyləyib. O, yeni yaradılan vəzifələrə hökumətyönlü hakimlərin təyin ediləcəyini bildirib.

Müxalifət təmsilçiləri düşünürlər ki, bu dəyişiklik hakimiyyətin təsir və təzyiq rıçıqlarının artırılmasına xidmət edir. Ümumiyyətlə, müxalifət parlamentdə son vaxtlar müzakirəyə çıxarılan digər qanun layihələrinə də etiraz edir ki, bu da ölkədə siyasi vəziyyəti daha da mürəkkəbləşdirir.

Ardı 7-ci səh.

# Tərəfdaşlarımızın həyata keçirdikləri layihələr sənayemizin qeyri-enerji sektorunun artırılmasına kömək edir

Əvvəli 1-ci səh.



2020-ci ildə Dağlıq Qarabağdakı gərgin dövrü geridə qoymağınız münasibətilə Sizi təbrik etmək istəyirəm. Biz Azərbaycana çox yaxınıq və həmin mühüm vaxt bütün italyanların diqqəti də burada idi. Bildiyiniz kimi, biz 7 ildən artıqdır ki, Azərbaycanda fəaliyyət göstəririk. Biz ölkənizin sənayeləşdirilməsi işinə töhfəmizi veririk. Bu gün burada olmaqdan fərəh hissi duyuruq. Çünki biz artıq yeni layihələrə cəlb olunmuşuq. Şəxsən özüm və "Maire Tecnimont" şirkətinin bütün heyəti adından Sizi əmin etmək istəyirəm ki, biz ölkənizlə əlaqələri genişləndirmək və sənayenin inkişafına töhfə vermək əzmindəyik.

Bildiyiniz kimi, hazırda ölkədə bizim 200 nəfərə yaxın heyətimiz çalışır. Biz Azərbaycanı doğma ölkə hesab edirik və işçi qüvvəsinin 72 faizini azərbaycanlılar təşkil edir. İlk vaxtlarda bizim heyət tamamilə italyanlardan ibarət idi, lakin tədricən heyətdə yerli əməkdaşların sayı artırıldı. Bu, daha bir vacib nailiyyətimizdir.

Daha bir mövzu bizim yerli universitet tələbələri və ümumiyyətlə, gənclərlə əməkdaşlığımıza aiddir. Bizim buradakı heyətimiz bu gün tələbələrlə əməkdaşlığa xüsusi önəm verir. Bu, bizim ümumi yanaşmamızdır. Ancaq ölkənizdə bu yanaşmanın inkişafı üçün yaxşı imkanlar mövcuddur. Digər bir məsələ sənaye zəncirinin yerli məzmunu ilə bağlıdır. Biz təchizat zəncirimizdə getdikcə daha çox Azərbaycan şirkətləri ilə əməkdaşlıq edirik. Sonuncu layihədə bizim Azərbaycanda sərmayə baxımından iştirakımız 400 milyon avrodan artıq olmuşdur. Bu da daha bir vacib məsələdir. Bildiyiniz kimi, biz İtaliyanı xaricdə təbliğ edirik və Azərbaycanla bizim çox möhkəm münasibətlərimiz var. Sizinlə bərabər biz bu əməkdaşlığı davam etdirmək və ölkənizdə uzunmüddətli fəaliyyət sahəmizi genişləndirmək arzusundayıq. Bir daha qeyd etmək istəyirəm ki, biz Azərbaycanı doğma ölkə hesab edirik. Bu, işlədiyimiz hər bir ölkədə bizim prinsipimizdir.

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun. Xoş sözlərinizə görə, əvvəla Azərbaycanın keçən il ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrikinizə görə təşəkkür edirəm. Biz xalqımız, ölkəmiz üçün çox çətinliklər yaradan bu əsas məsələni həll etdikdən sonra, - bu məsələ həm də dünyada ən böyük haqsızlıqlardan biri idi, - Azərbaycanın inkişafı daha da sürətli olacaq. Buna baxmayaraq, hətta işğal illəri ərzində Azərbaycan uğurla inkişaf etmişdir, sənayeni və müasir texnologiyaları inkişaf etdirmişdir. Yeri gəlmişkən, bizim sizin şirkətinizlə sıx əməkdaşlığımız və Azərbaycanda icra etdiyiniz layihələr onu göstərir ki, ölkənin iqtisadi və sənaye inkişafı çox yaxşı təsir bağışlamışdır.

İndi tariximizin yeni səhifəsidir. Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək. Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerləyeksan edilib. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də, əlbəttə, fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq. Əlbəttə, sizin Azərbaycandakı fəaliyyətiniz və həyata keçirdiyiniz layihələr bizə sənayemizin qeyri-enerji sektorunu artırmağa kömək edir. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, pandemiyaya və Azərbaycanda keçən il olan iqtisadi azalmaya baxmayaraq, - o, 4,3 faiz olmuşdur, - bizim qeyri-enerji sənayemiz 12,5 faiz artmışdır. Bu, sənayeləşmə proqramının əsl nümayişidir və "Maire Tecnimont" kimi aparıcı beynəlxalq şirkətlə əməkdaşlıq, əlbəttə ki, bizə kömək etdi və gələcəkdə də kömək edəcək.

Mən sizin Azərbaycandakı fəaliyyətinizlə bağlı məlumata baxırdım və əlbəttə ki, Sumqayıtdakı açılış mərasimini də xatırlayıram. O zaman bu mühüm əlamətdar hadisədə Prezident cənab Mattarella mənimlə birlikdə iştirak edirdi. Ümumiyyətlə, sizin şirkətiniz Azərbaycanda dəyəri 1,6 milyard avrodan çox olan layihələrə cəlb olunub və hesab edirəm ki, bu belə də davam edəcək. Çünki siz artıq bizim ölkəyə sadiq olduğunuzu nümayiş etdirmisiniz. Sizin fəaliyyətinizdə yer alan yerli vətəndaşların sayı ilə bağlı dedikləriniz sizin sadiqliyinizi və Azərbaycanda uzunmüddətli strategiyanızı nümayiş etdirir. Çünki burada uzun müddət ərzində fəaliyyət göstərməyi planlaşdırmasaydınız, bunu etməzdiniz. Başlanğıcda yalnız italyanlar işləyirdi, indi yerli kadrların sayı 70 faizdən çoxdur. Beləliklə, siz təlimlərə töhfə vermisiniz və bu da çox önəmlidir.

İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etmək istəyirəm. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir.

Beləliklə, biz ümid edirik ki, italyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqlar. Sizə deyə bilərəm ki, artıq bərpa işləri və tikinti işləri ilə bağlı bir neçə italyan şirkəti dəvət olunub. Əminəm ki, onların sayı daha da artacaq. Çünki mən artıq dəfələrlə çıxışlarımda demişəm və bir daha qeyd etmək istəyirəm ki, biz yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Bu çətin anda siz dostlarınızın, həqiqətən, kimin olduğunu anlayırsınız. Bu, çox vacib və dəyərli bir məsələdir.

Planlarımız haqqında sizə bir məsələni də qeyd etmək istəyirəm. Əminəm ki, siz bu barədə bilirsiniz. Lakin bu istiqamətdə işlər gedir. Bu məsələ Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlıdır. Biz artıq yer ayırmışıq. Artıq universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlayıb. Bu məsələ həmçinin hökumət səviyyəsində razılaşdırılmışdır. Ümid edirəm ki, gərgin çalışsaq bu il biz bu işə başlaya bilərik. Çünki bu, bizim dostluğumuzun yaxşı göstəricisi olacaq və eyni zamanda biz bu müəssisələri, bu sənaye sahələrini idarə edə bilək deyə bizim iqtisadiyyatın gələcək üçün tələb etdiyi ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu həmçinin ölkələrimiz arasında sıx dostluq əlaqələrinin güclənməsinə də kömək edəcək. Sizə uğurlar arzulayıram və sizi Bakıda görməyə şadam. Ümid edirəm ki, növbəti dəfə biz videokonfrans vasitəsilə yox, üzbəüz görüşəcəyik.

Baş icraçı direktor **Pierroberto FOLGIERO** dedi:

- Sağ olun, cənab Prezident. Əvvəlcə, universitetlə əməkdaşlıq əsasında inkişaf məsələlərində Sizə yardımçı olmaqdan olduqca məmnunam, çünki "Maire Tecnimont" şirkətinə gəldikdə, ilk olaraq texnologiyalara əsaslanan şirkət haqqında düşünürsən. Bizim yeni texnologiyalara böyük inamımız var və bu səbəbdən töhfə verməkdən çox məmnun olardıq. Xüsusən də bilirəm ki, SOCAR ilə kimya sahəsində əməkdaşlıq aparılır. Bu işbirliyi universitetin fəaliyyətə başlamasını nəzərdə tutacaq. Bu isə kimya sahəsində malik olduğumuz ən mühüm dəyərlərdən biridir.

İcazə verin, əvvəlcə, bildirim ki, biz öndə gedirik və istərdik, "yaşıl kimya" adlandırdığımız sahəni inkişaf etdirək. Fikrimizcə, dünyanın bu bölgəsində Azərbaycanın üzərinə mühüm rol düşür. Həmin ideyalarla bölüşməkdən çox şad olardıq. Bu, birinci məsələdir.

İkinci məsələyə gəlincə, biz əməkdaşlığı, məsələn, enerji istehsalı sahəsində də genişləndirməkdə çox maraqlıyıq. Yanaşmamız uzunmüddətlidir və ən əsası insan kapitalına söykənir, gənclərin işə cəlb edilməsini nəzərdə tutur. Sizə bir faktı da söyləyim. Biz dünya miqyasında regional müşavirələr keçiririk və onlardan birində "Tecnimont" şirkətində çalışan gənc azərbaycanlı həmkarımız iştirak edib və dünya ictimaiyyəti qarşısında əməkdaşlığın faydası, mədəniyyətlərarası işbirliyi barədə çıxış edib. Onun çıxışı bütün insanlarımızda böyük hisslər doğurdu. Hər hansı böyük uğur hər ikimizə məmnunluq hissləri yaradır. İcazə verin, bildirim ki, yeni texnologiyaları inkişaf etdirmək və sizin çevikliyinizdən, sahibkarlıq imkanlarından istifadə etməkdən çox şad olardıq. Bu keyfiyyətlər İtaliyanın iş adamlarının da yanaşmasının əsasında dayanır və müəyyən dərəcədə "yaşıl kimya" sahəsində qabaqcıl mövqeyi şərtləndirir.

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun. Sizin gələcək tərəfdaşlığımızla bağlı ideya və fikirlərinizi tam dəstəkləyirəm. Əlbəttə, Turin Universitetinin ümumi işlərimizdə iştirakı çox alqışlanandı. Həmçinin siz "yaşıl kimya"nı qeyd etdiniz. Bildiyimə görə, bu, texnoloji inkişaf baxımından yenilikdir. Bu həmçinin bizim gündəliyimizə tam uyğundur, çünki əvvəlki illərdə biz çox işlər görməli idik ki, həyat tərzini yaxşılaşdıraq və xüsusən də bütün çirklənmiş sahələri təmizləyək. Xüsusən də burada, Bakıda və Abşeron yarımadasında. Həmin ərazilər yüz ildən artıqdır ki, çirkləndirilib. Biz böyük sərmayələr yatırdıq, torpaqlarda çoxlu rekultivasiya işləri apardıq. Ətraf mühitin qorunmasına aid bir çox məsələlərlə məşğul olduq. Bu, davam edəcək. Buna görə "yaşıl enerji" konsepsiyası, əsasən, Azərbaycan üçün irəliyə aparan yoldur. Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər "yaşıl enerji zonası"nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir. Eyni zamanda biz orada "ağıllı şəhər", hətta "ağıllı kənd" adlanan müasir texnologiyaları tətbiq edəcəyik. Bu həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac duyduğumuz digər bölgələri üçün yaxşı nümunə olacaq.

Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik. Çünki ölkə müasirləşməlidir, intellektual baxımdan bacarıqlı olmalıdır və sənaye sahəsində güclənməlidir ki, biz neft və qaz qiymətlərindən asılı olmayaq. Bu, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Təbii ki, sənaye inkişafı prosesi zamanı, qeyd etdiyiniz kimi, şirkətiniz ilə Azərbaycan arasında strateji birlik çox alqışlanacaq. Müasirləşmək, irəliyə doğru getmək və inkişaf etmək üçün bizim bu cür güclü tərəfdaşa ehtiyacımız var.

Mən bir daha, xüsusi olaraq, qeydlərinizdən birinə istinad etmək istəyirəm. Bu, şirkətinizdə yerli işçilərin olması ilə bağlıdır. Bu, dostluğun əsl rəmzidir və dostluğu nümayiş etdirir. Mən buna görə sizə təşəkkürümü bildirmək istəyirəm və əminliyimi ifadə edirəm ki, biz şirkətinizlə və tərəfdaşlarınızla birgə işimizi davam edəcəyik. Əminəm ki, buradakı imkanlar, İtaliyaya olan səmimi münasibətlər barədə ölkənizin iş adamları nə qədər çox bilərsə, bir o qədər çox İtaliya şirkətləri bura gələcək. Biz bunu istəyirik.

## Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab Qotabaya Racapaksaya

Hörmətli cənab Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı dostluq münasibətləri daha da inkişaf edəcək, Qoşulmama Hərəkatı daxil olmaqla çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımız davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Şri-Lanka xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2021-ci il*

## A.Q.Rəhimzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Arif Qafar oğlu Rəhimzadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2021-ci il*

## Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin hakimi D.Y.Səfərovun vəzifəsinin dəyişdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təklifini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini, habelə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsini və 97-ci maddəsinin ikinci hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. Daşqın Yaqub oğlu Səfərov Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2021-ci il*

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**Ağır cinayətlər məhkəmələri üzrə:**

**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Əliyev Əli Abdulla oğlu
Səfərli Cavid Şamil oğlu

**Sumqayıt Ağır Cinayətlər Məhkəməsi**
Əliyev Hafiz Samir oğlu
Hümbətov Fəhmin Zaur oğlu

**İnzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**
Ağalarov Həmid Azər oğlu
Əhədova Aygün Əlqəmə qızı
Həsənov Orxan Xaqani oğlu
Salahova Səlma İsgəndər qızı
Sevdimalıyeva Günel Arif qızı

**Sumqayıt İnzibati Məhkəməsi**
Mirzəyeva Leyla Eytibar qızı

**Şəki İnzibati Məhkəməsi**
İsmayılzadə Fərid Sabir oğlu
Musayev Vüqar Ələkbər oğlu

**Kommersiya məhkəmələri üzrə:**

**Bakı Kommersiya Məhkəməsi**
Həsənova Ülkər Təhmasib qızı
Hüseynov Kənan Hüseyn oğlu

**Şirvan Kommersiya Məhkəməsi**
Abdullayev Elşən Uğur oğlu

**Hərbi məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi**
Orucəliyev Abil Elmar oğlu

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Babək Rayon Məhkəməsi**
İsmayıl Günay Mikayıl qızı

**Naxçıvan Şəhər Məhkəməsi**
Əliyeva Gülsüm Kamal qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Kərimova Mahirə Nəzər qızı
Qurbanova Aygün Arzu qızı

**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Axundov Fuad Aydın oğlu

**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Abidova Günay Çingiz qızı
İbadzadə Anar Qənimət oğlu

**Bakı şəhəri Nizami Rayon Məhkəməsi**
Əliyeva Qumru Yəhya qızı
Yusifova Ülkər Bayram qızı

**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Cəfərli Nilufər Arif qızı
Mahmudova Həqiqət Sahib qızı

**Bakı şəhəri Səbail Rayon Məhkəməsi**
Səmədova Günel Kamil qızı

**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Qafarova Rübabə Nurulla qızı

**Bakı şəhəri Yasamal Rayon Məhkəməsi**
Babazadə Gülnar Vidadi qızı
Xudayev Kərim Bahəddin oğlu

**Rayon (şəhər) məhkəmələri üzrə:**

**Abşeron Rayon Məhkəməsi**
Abbasova Məlahət Aslan qızı

**Ağdaş Rayon Məhkəməsi**
Sultanov Cavid Rizvan oğlu

**Ağsu Rayon Məhkəməsi**
Əsgərov Anar Əlifağa oğlu

**Bərdə Rayon Məhkəməsi**
Əhmədov Elsun Məzahir oğlu

**Xaçmaz Rayon Məhkəməsi**
Səmədzadə Sərxan Akif oğlu

**İsmayıllı Rayon Məhkəməsi**
Hüseynov İlqar Vidayət oğlu

**Qazax Rayon Məhkəməsi**
Məmmədov Fəxri Afiq oğlu

**Quba Rayon Məhkəməsi**
Seyidov Vüqar Mircuma oğlu

**Masallı Rayon Məhkəməsi**
Quliyev Ceyhun Əmir oğlu

**Saatlı Rayon Məhkəməsi**
Sadıqov Mirlətif Süleyman oğlu

**Sumqayıt Şəhər Məhkəməsi**
Hüseynov Elmir Xoşbəxt oğlu

**Şamaxı Rayon Məhkəməsi**
İsmayılov Natiq Əvəz oğlu

**Şəmkir Rayon Məhkəməsi**
Musayev Taleh Valeh oğlu.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2021-ci il*

## Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin təşkili haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təklifini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında məhkəmə sistemini təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Sumqayıt şəhərində Sumqayıt Ağır Cinayətlər Məhkəməsi təşkil edilsin.

2. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin ərazi yurisdiksiyasını müəyyən etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin fəaliyyəti üçün zəruri şərait yaradılması məqsədilə onun bina, avadanlıq, rabitə, nəqliyyat və digər təşkilati-texniki vasitələrlə təmin edilməsi ilə bağlı tədbirlər görsün;

3.2. maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi vasitəsilə həyata keçirilən məhkəmə aparatları işçilərinin ümumi sayının artırılmasını təmin etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2021-ci il*

## T.İ.Əfəndiyevin Bakı Xoreoqrafiya Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Timuçin İlyas oğlu Əfəndiyev Bakı Xoreoqrafiya Akademiyasının rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2021-ci il*

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 15 illiyi münasibətilə Azərbaycan Respublikasında gender problemlərinin həlli və sosialyönümlü siyasətin həyata keçirilməsi sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**
Əliyeva Kamila Ağadadaş qızı
Sadıqova Zülfiyyə İsa qızı

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**
Alışanova Şölə Tofiq qızı
Haqverdiyeva Kəmalə Kamil qızı
Həsənov Zöhrab Məhyəddin oğlu
Məmmədov Seymur Qurban oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2021-ci il*

# Sosial-iqtisadi inkişaf Strategiyasının hazırlanması üçün komissiya yaradılıb

Fevralın 3-də Baş nazir Əli Əsədov "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasının təmin edilməsi barədə Sərəncam imzalayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Nazirlər Kabinetinin Sərəncamında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın formalaşması, bu sahədə strateji planlaşma və idarəetmənin effektiv təşkili və əlaqələndirilməsi, habelə uyğun siyasət və islahat istiqamətlərinin müəyyən edilməsi məqsədilə qərarlar öz əksini tapıb.

Sərəncama əsasən, Baş nazirin sədrliyi, müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının iştirakı ilə komissiya yaradılıb.

Komissiya "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsinin hazırlanması və həyata keçirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirəcək.

# Milli Məclisdə gənc ailələrlə bağlı dinləmə keçirilib

**Fevralın 3-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə videokonfrans formatında "Gənc ailələrlə bağlı mövcud vəziyyət: imkan və çətinliklər" mövzusunda dinləmə keçirilib.**







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev, deputatlar, əlaqədar dövlət qurumlarının və gənclər təşkilatlarının təmsilçiləri, vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bu il gənclər gününü qalib xalq olaraq qeyd etdiyimizi vurğulayaraq deyib ki, Vətən müharibəsi günlərində Azərbaycan gəncləri səngərdə, diplomatiya müstəvisində və informasiya məkanında bütün qüvvələrini səfərbər edərək Ali Baş Komandanın rəhbərliyi altında tarixi Qələbə qazandılar, igid oğullarımız öz canları, qanları bahasına 30 illik Vətən həsrətimizə son qoydular.

Komitə sədri bildirib ki, Azərbaycan əhalisinin 23,6 faizini təşkil edən gənclərə qayğı dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətin həyata keçirilməsi üçün müvafiq qanunvericilik bazası yaradılıb. Hazırda Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni strateji mərhələyə daxil olur. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Növbəti 10 ildə ölkənin sosial-iqtisadi inkişafına dair 5 Milli Prioritet həyata keçiriləcək ki, bu da hər bir vətəndaşı əhatə edəcək. Həmin prioritetlər, xüsusilə, gənclərin inkişafına, gənc ailələrin sosial vəziyyətinin yaxşılaşmasına kömək olacaq.

Son 56 ildə qlobal miqyasda nikahların sayının 3 dəfədən çox azaldığını, boşanmaların sayının isə 3 dəfəyədək artdığını qeyd edən Hicran Hüseynova hazırda Qərbdə ailə dəyərlərinin mənəvi deqradasiyaya uğradığını, övladsız ailə və birgə yaşayışa əsaslanan vətəndaş nikahlarının artdığını təhlükəli hal kimi dəyərləndirib. O, bu tendensiyanın ölkəmizə sirayət etməməsi üçün adekvat addımların atılmasının vacibliyini qeyd edib.

Komitə sədri son dövrlərdə "ailə psixoloqu" məsələsinin gündəmə gəldiyini, narkotik və psixotrop maddə istifadəçilərinin sayının gəncləşdiyini, reproduktiv sağlamlıq məsələlərinin aktuallaşdığını, erkən nikahların qarşısının alınmasının vacibliyini, məşğulluğun təmin olunması zərurətini və digər aktual məsələləri diqqətə çatdırıb. Bildirib ki, ailələrimizi qorumaq məqsədilə Milli Məclisin müvafiq komitələrində bir sıra təkliflər hazırlanır, həmçinin Ailə Məcəlləsinin və bir sıra qanunların yenidən ekspertizadan keçməsi istiqamətində iş aparılır.

Tədbirdə çıxış edən Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev gənc ailələrlə bağlı konkret problemlərə toxunub. Sədr müavini COVID-19 pandemiyası səbəbindən ötən il dünyada boşanmaların sayının artdığını və bu halın daha çox gənc ailələrə baş verdiyini təəssüflə qeyd edib. Bildirib ki, 2020-ci ilin may ayında ölkəmizdə 1501 boşanma halı rəsmiləşib.

O deyib ki, ailə cəmiyyətin özəyidir və dövlətin götürdüyü öhdəliklərdən biri də ailə problemlərinin həlli, sağlam ailə mühitinin yaradılmasıdır. Boşanmaların artmasına təsir edən amillər sırasında bəzi gənclərin narkotika, alkoqol və digər zərərli vərdişlərə qurşanma məsələsinə diqqəti çəkən Adil Əliyev qeyd edib ki, bizdə "Mediasiya haqqında" qanun qəbul olunduğuna görə, boşanmalarla əlaqədar bir sıra mübahisələrin məhkəməyə qədər həlli mümkündür. Mediasiya çərçivəsində psixoloqların və digər sosial işçilərin xidmətindən yararlanmaqla əsassız boşanmaların qarşısını almaq olar.

Gənclər və idman komitəsində həyata keçirilən və nəzərdə tutulan işlər barədə məlumat verən sədr müavini vurğulayıb ki, Vətən müharibəsində gənclərimiz döyüş meydanında böyük şücaət göstərdilər, arxa cəbhədə informasiya müharibəsində əzmkarlıq nümayiş etdirdilər. Gənc ailələrin çətinliklərinin həlli istiqamətində həyata keçirilən bütün tədbirlərlə yanaşı, gənclərimizin milli-mənəvi dəyərlərimizə uyğun tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.

Sonra dinləmədə gənclər və idman nazirinin müavini İntiqam Babayev "Gənclər siyasətinin həyata keçirilməsində dövlətin üzərinə düşən vəzifə və öhdəliklər" mövzusunda məruzə edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva "Müasir Azərbaycan cəmiyyətində gənc ailənin statusu"ndan söhbət açıb. Gənclər Fondunun sədri Fərid Cəfərov "Azərbaycan gəncliyinin inkişafında Gənclər Fondunun rolu" barədə danışıb.

Məruzələr dinlənildikdən sonra müzakirələr aparılıb.

Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli, "Azəri Gənclər Alyansı" İctimai Birliyinin sədri Leyla Məmmədli-Sadıqova, "Gender Hub Azerbaijan" təşkilatının sədri Məryəm Məcidova bir sıra aktual məsələlərə toxunublar, təkliflər irəli sürüblər.

Dinləmədə Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, deputatlar Tamam Cəfərova, Nigar Arpadarai və Rauf Əliyev gənc ailələrin mövcud vəziyyəti, maddi təminat məsələsi, boşanmaları doğuran səbəblər, narkomaniyaya qurşanma meyilləri, sosial şəbəkələrin zərərli tərəfləri, Qərbdən ixrac olunan yad psixologiya və yad adətlərin, yad vərdişlərin Azərbaycan gənclərinə təsiri və digər vacib məqamlardan bəhs ediblər, təkliflərini diqqətə çatdırıblar.

Videokonfrans formatında keçirilən dinləmədə deputatlar Ramin Məmmədov, Sevil Mikayılova, Pərvin Kərimzadə, Sədaqət Vəliyeva, Rəşad Mahmudov və Könül Nurullayeva, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Azər Əliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli, İnsan Alverinə qarşı Mübarizə Təşkilatının sədri Ramiz Alıyev, Maarifpərvərlik Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyasının sədri Afiq Məlikov, "Qadın və Gənc Ailələrin Sosial İnkişafı" İctimai Birliyinin sədri Tünzalə Cavadova, "Müasir Gənclərin İnkişafına Dəstək" İctimai Birliyinin sədri Fəqan Hüseynov iştirak ediblər.

Müzakirələrə yekun vuran komitə sədri Hicran Hüseynova çıxışlarda səslənmiş fikirlərə münasibət bildirib, qanunvericiliyə dair təkliflərin nəzərə alınacağını qeyd edib. Tədbir iştirakçılarına öz təkliflərini yazılı şəkildə komitəyə təqdim etmələri tövsiyə olunub.

# Mark ŞNAYER: "Dünya ictimaiyyəti Azərbaycanın multikulturalizm sahəsində nailiyyətlərini yüksək dəyərləndirir"



Fevralın 3-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda səfərdə olan ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayerlə görüşüb.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Şeyxülislam A.Paşazadə Azərbaycandakı tolerant mühitdən söhbət açaraq, ölkəmizdə əsrlərdən bəri multikultural dəyərlərin son dərəcə önəmli yer tutduğunu, müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşadıqlarını diqqətə çatdırıb. Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək uğrunda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə apardığı 44 günlük Vətən müharibəsində bir yumruq kimi birləşən Azərbaycan vətəndaşları arasında yəhudi xalqının nümayəndələrinin də olduğunu bildirən Şeyxülislam A. Paşazadə yəhudilərin də şəhidlik zirvəsinə ucaldığını fəxrlə vurğulayıb. Bildirib ki, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov yolunun davamçıları, yəhudi milliyyətindən olan şəhidlərimizin xatirəsi bizim üçün əzizdir. Azərbaycan Prezidentinin Şuşada etdiyi çıxışda vurğuladığı kimi, Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərdə ölkəmizdə yaşayan bütün millətlərin və dinlərin nümayəndələrinin rolu olub. QMİ sədri vurğulayıb ki, dövlətimiz azad olunmuş Qarabağ torpaqlarında quruculuq-bərpa işlərini həyata keçirdikdən, məhv edilmiş dini-mənəvi abidələrimizi dirçəltdikdən sonra orada multikultural ənənələrimizə uyğun həyat bərqərar olacaqdır.

Şeyxülislam A. Paşazadə Mark Şnayeri Azərbaycanın, xalqımızın dostu kimi dəyərləndirib, ölkəmizin haqlı mübarizəsinə həmişə dəstək verməsinə görə ona dərin minnətdarlığını bildirib. QMİ sədri dünyada, o cümlədən ABŞ-da ermənilər tərəfindən Azərbaycana qarşı aparılan mənfur kampaniyaları, məkrli şəkildə yayılan təxribatçı mahiyyətli informasiyaları qonağın diqqətinə çatdırıb. Qeyd edilib ki, Azərbaycan dövlətinin tolerant, multikultural imicinə qətiyyən uyğun gəlməyən qərəzli, uydurma məlumatların qarşısının alınmasında ABŞ-ın nüfuzlu yəhudi icmasının rolu böyük ola bilər.

Səmimi qəbula görə təşəkkürünü bildirən ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayer, öz növbəsində, Azərbaycandakı multikultural və tolerant mühiti yüksək qiymətləndirdiyini, Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin, o cümlədən ABŞ-dakı yəhudi icması ilə əlaqələrin uğurla inkişaf etdiyini bildirib. Mark Şnayer Azərbaycan Prezidenti İlham Əliyev və QMİ sədri ilə hər görüşündən gözəl təəssüratlar yaşadığını, Bakıda və ABŞ-da keçirdikləri görüşləri, habelə dövlətimizin başçısının elan etdiyi Multikulturalizm, İslam Həmrəyliyi illəri çərçivəsində keçirilmiş tədbirlərdə iştirakını məmnunluqla xatırladıb. Azərbaycanda müxtəlif xalqların və etnik qrupların, o cümlədən yəhudi icması nümayəndələrinin dinc yanaşı və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığını qeyd edən Mark Şnayer onların Azərbaycanın ictimai həyatında fəal iştirak etdiyini, hörmət, ehtiram gördüklərini xüsusi vurğulayıb.

Bildirilib ki, multikulturalizm siyasəti vasitəsilə etnik-mədəni və dini müxtəlifliyin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətləri dünya ictimaiyyəti yüksək dəyərləndirir. Azərbaycanın qlobal ideyalarının dünyaya yayılmasına hər zaman dəstək olacağını bildirən M.Şnayer rəhbərlik etdiyi ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfəsini əsirgəməyəcəyini qeyd edib. QMİ sədrinin fikirlərinə münasibət bildirən qonaq diqqətə çatdırıb ki, erməni lobbisinin ABŞ-da Azərbaycanın əleyhinə apardığı çirkin kampaniyalara qarşı hər zaman olduğu kimi, yenə də Azərbaycan həqiqətləri ilə mübarizə aparırıq - sübutlarla bəyan edirik ki, Azərbaycan dövləti nəinki öz ölkəsində, İslam dünyasında, bütün dünyada dinlərarası münasibətlərdə nümunəvi dialoq və əməkdaşlıq təcrübəsinə malikdir, multikultural həyat modelini yaşadır. Etnik Anlaşma Fondunun rəhbəri Mark Şnayer ABŞ-ın NBC kanalında hər həftə ravvin kimi çıxışlar etdiyini, bu həftədəki çıxışmoizəsində Azərbaycana səfərindən bəhs edəcəyini, Azərbaycan Prezidenti və Şeyxülislamı ilə görüşlərindən xoş təəssüratlarını bölüşəcəyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycandakı dini konfessiyaların rəhbərləri - Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr İşeyin, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev, Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri Aleksandr Şarovski iştirak ediblər.

# Qarşıda bizi daha ciddi işlər gözləyir, bu səbəbdən də hər kəs öz məsuliyyətini başa düşməlidir

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz 44 gün ərzində ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Əzəli və əbədi torpaqlarımız düşmən işğalından azad edildikdən sonra qarşıda duran əsas məqsədlərdən biri də bərpa-quruculuq işlərinin həyata keçirilməsi və vətəndaşlarımızın öz torpaqlarına geri qayıtmasıdır. Dövlət başçısı həmişə çıxışlarında bildirir ki, işğaldan azad edilmiş ərazilər təkcə ölkəmizin yox, eyni zamanda dünyanın cənnət guşələrindən birinə çevriləcək. Artıq bu sahədə işlərə start verilib və ilkin mərhələdə yolların, hava limanının tikintisi işləri sürətlə davam edir. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev deyib.

Ərazilərin minalardan təmizlənməsinin, Ermənistanın ölkəmizə uzun illər ərzində vurduğu maddi və mənəvi ziyanın hesablanmasının diqqət mərkəzində olduğunu qeyd edən Adil Əliyev bildirib: "Hazırda Ermənistanın ölkəmizə vurduğu zərərin hesablanması məqsədilə mütəxəssislərin iştirakı ilə komissiyalar fəaliyyət göstərir. Ermənistanın vurduğu ziyan sözlə ifadə edilə bilməyəcək qədər böyükdür. Davam edən hesablamalar nəticəsində alacağımız rəqəmlərin çox böyük olacağı şübhəsizdir. Çünki Ermənistan ərazilərimizi yalnız işğal etməyib, orada mümkün olan bütün özbaşınalıqları, vandalizmi həyata keçirib. Ərazidə salamat binaların qalmaması, bütün infrastrukturun dağıdılması, tarixi, mədəni abidələrin məhv edilməsi nəticəsində ölkəmizə külli miqdarda ziyan vurulub.

Hazırlanan hesabatlar Ermənistanın vurduğu zərərin qarşılığında ödənilməli olan təzminatın məbləğinin müəyyənləşdirilməsi üçün əsas təşkil edəcək. Minatəmizləmə əməliyyatları başa çatdıqdan, habelə vurulan ziyanın məbləği müəyyən edildikdən sonra ərazidə quruculuq işləri daha da geniş vüsət alacaq.

Hazırda isə mühüm məsələlərdən biri işğaldan azad olunmuş ərazilərdə yeni idarəetmə modelinin qurulması, habelə həmin torpaqlarda aparılan bütün işlərin sistemləşdirilməsi və növbəti mərhələdə oraya böyük qayıdışın təmin olunmasıdır.

Məlum olduğu kimi, hazırda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında işğaldan azad edilmiş torpaqlarımızda aparılan işlərlə bağlı Qərargah yaradılıb.

Qərargahın əsas fəaliyyət istiqamətlərindən biri işğaldan azad edilmiş ərazilərlə bağlı irəli sürülmüş təşəbbüslərin qiymətləndirilməsi, eyni zamanda bölgənin gözəl guşəyə çevrilməsi istiqamətində planlı işlərin aparılmasıdır.

İşğaldan azad edilmiş ərazilərimizdə yeni idarəetmə sistemi qurulur, dövlət başçısının xüsusi nümayəndələri ərazilərə təhkim olunur və orada baş verən bütün hadisələr onların nəzarəti altındadır.

Belə ki, ilkin olaraq Şuşa şəhərinə xüsusi nümayəndə təyin edildi. Bundan əvvəl isə Şuşa dövlət başçısı tərəfindən ölkəmizin mədəniyyət paytaxtı elan olunub. Bununla yanaşı, Şuşa şəhərinin türk və İslam dünyalarının paytaxtı elan edilməsi istiqamətində ciddi iş aparılır. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi ilə yanaşı, aparılan abadlıq-quruculuq işləri, habelə işğaldan azad edilmiş ərazilərimizin sakinlərinin oraya geri qaytarılması prioritet məsələlərdəndir.

Təəssüflə qeyd etməliyik ki, belə bir məqamda bəzi məmurların irəli sürdüyü təkliflər olduqca absurd səslənir. Bəzən məmurların təkliflərinin əsasında dövlət mənafeyindən daha çox, şəxsi mənafe dayanır, bu cür münasibət isə qəbuledilməzdir.

Eyni zamanda bəzi məmurların onlara edilən müraciətlərə yanaşma tərzləri olduqca qəbuledilməzdir. Belə ki, vəzifəli şəxslərə edilən müraciətlər zamanı onlar hər hansı bir problemin həlli üçün yalnız onlara fərdi qaydada müraciət etdikdən sonra məsələnin həllinin mümkün olacağını bildirirlər. Əfsuslar olsun ki, bəzən hər hansı bir məsələnin həlli üçün müvafiq icra hakimiyyəti orqanının rəhbərliyi ilə əlaqə saxlamaq müşkül məsələyə çevrilir. Belə olduqda isə sadə vətəndaşların həmin məmurların qəbuluna düşməsi, problemlərinin həll edilməsi demək olar mümkün deyil.

Dövlət başçısı öz çıxışlarında dəfələrlə deyib ki, hər bir məmur ona göstərilən etimadı doğrultmalıdır. Göstərilən etimadı doğrultmayanların, qanunsuz əməllər törədənlərin ilkin mərhələdə vəzifələrini, bəzi hallarda isə azadlıqlarını itirmələrinin dəfələrlə şahidi olmuşuq. Bu gün vəzifənin və ya səlahiyyətin həcmindən asılı olmayaraq, əsas amalımız Azərbaycan Prezidentinin formalaşdırdığı siyasi iradəyə uyğun olaraq dövlətə, dövlətçiliyə, vətəndaşlarımıza xidmətdir. Əgər əsas hədəf budursa, hansı səbəbdən bəzi məmurlar əlçatan olmaqdan imtina edir, görüşlərdən, telefon zənglərindən qaçır və sonda vətəndaşların problemləri daha da dərinləşir.

Bəzi hallarda vətəndaşların müraciətləri təmin olunmadığı üçün daha yuxarı qurumlara müraciətlər edilir, vətəndaşın məmurun qəbuluna düşməsi isə indiki məqamda mümkün deyil. Başa düşüləndir ki, indi pandemiyadır və hazırkı məqamda qəbul mümkün deyil, amma ən azından müraciətlərə baxılaraq onların qanunvericiliyin tələblərinə uyğun həlli mümkündür. Lakin bəzi məmurlar sanki özlərini bütün cəmiyyətdən təcrid ediblər. Belə hallar heç xoşagələn deyil və cəmiyyətdə olan xoş əhvali-ruhiyyənin, mehribançılığın, inamın əleyhinə yönələn yolverilməz hərəkətlərdir.

Ümid edirik ki, Prezident İlham Əliyevin Şuşanın məmurlar paytaxtı yox, mədəniyyət paytaxtı elan edildiyi barədə fikirləri hamı üçün dərs olacaq. Çünki bu gün hər kəs torpaqlarımızın işğaldan azad edilməsinin cəmiyyətdə yaratdığı xoş ovqatın daimi olması istiqamətində əlindən gələni etməlidir. Axı qarşıda bizi daha böyük işlər gözləyir. Bunların içərisində ən mühümü isə işğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsi və oraya böyük qayıdışın təmin edilməsidir.

# Avropa Parlamenti üzvlərinin bəyanatı onların bölgədəki mövcud vəziyyətdən hələ də tam məlumatlı olmadıqlarını göstərir

"Avropa Parlamentinin (AP) üzvləri, Avropa İttifaqı (Aİ) və Cənubi Qafqaz ölkələri üzrə Parlament Tərəfdaşlıq komitələrində nümayəndə heyətinin sədri Marina Kalyurand, AP-nin Ermənistan üzrə daimi məruzəçisi Andrey Kovaçev və AP-nin Azərbaycan üzrə daimi məruzəçisi Yelena Zovko tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların davam etdirilməsinə ehtiyacın olması" barədə birgə bəyanatın verilməsi Avropa Parlamenti üzvlərinin, ümumiyyətlə, bölgədə sülh və əmin-amanlığın beynəlxalq hüququn təməl prinsipləri əsasında təmin olunması mövqeyindən çıxış etmələrinə rəğmən, bölgədəki mövcud vəziyyətdən hələ də tam məlumatlı olmadıqlarını göstərir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin bəyanata dair şərhində yer alıb. Şərhdə daha sonra deyilir: "İlk növbədə, Avropa Parlamentinin üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, AP-nin öz qətnamələrində illərdir beynəlxalq hüququn prinsipləri, həmçinin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinə çağırdığı Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulub, Azərbaycan ərazi bütövlüyünü və BMT TŞ-nin 1993-cü il tarixli müvafiq qətnamələrinin həyata keçirilməsini təkbaşına təmin edib. Başqa sözlə desək, AP üzvlərinin istinad etdiyi və dövlətlərarası münasibətlərin təməlini təşkil edən Helsinki Yekun Aktının sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsipləri rəhbər tutulub.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla bölgədə yeni reallıq yaranıb. AP üzvlərinin sözügedən üçtərəfli Bəyanatın bölgədə sabitliyin təmin olunmasına gətirdiyini qeyd etməsi təqdirəlayiqdir. Çünki hazırkı mərhələdə bölgədə sülh və təhlükəsizliyin təmin olunması, habelə tərəflər arasında etimadın qurulması üçün məhz 10 noyabr tarixli üçtərəfli razılaşmanın icrası və bu istiqamətdə müvafiq addımların atılması vacibdir.

Azərbaycan tərəfi, öz növbəsində, sözügedən razılaşmanın icrası üçün, o cümlədən humanitar məsələlərin həlli sahəsində bütün lazımi addımları atır, lakin Ermənistan tərəfinin imza atdığı bu bəyanata sadiqliyi sual doğurur. Yaxşı olardı ki, AP üzvləri Ermənistan tərəfinə hərbi əməliyyatların dayandırılması ilə bağlı birgə bəyanata imza atdıqdan az qala 20 gün sonra nə səbəbdən Azərbaycan ərazilərinə diversant qrupunu göndərdiyi ilə bağlı sual ünvanlayardılar. Bəlkə o zaman AP üzvləri haqqında bəhs olunan Ermənistan hərbçilərinin heç də hərbi əsir deyil, atəşkəs elan olunduqdan sonra məqsədyönlü şəkildə Azərbaycan ərazilərinə göndərilmiş terrorçu diversant qrupunun üzvləri olduğunu anlayardılar. Ümumiyyətlə, Ermənistanın atəşkəs elan olunduqdan sonra terror aktları törətmək məqsədilə əraziyə hərbi qulluqçularını göndərməsi, bu ölkənin iştirakçısı olduğu Şərq Tərəfdaşlığının təməl prinsiplərinə və ümumilikdə, Avropa dəyərlərinə hörmət etmədiyini açıq şəkildə nümayiş etdirir.

Mədəni irs məsələsinə gəldikdə isə, AP üzvlərinə yaxşı bəlli olmalıdır ki, Azərbaycanın onilliklərdir işğal altında qalan ərazilərində Ermənistan tərəfinin apardığı qeyri-qanuni fəaliyyət nəticəsində bütün tarixi, mədəni və dini irs demək olar ki, məhv edilib, sözügedən abidələrin dağıdılması, talan edilməsi, mənşəyinin dəyişdirilməsi ilə bağlı hərbi cinayətlərə bərabər fəaliyyət həyata keçirilib. Bu məsələ Azərbaycan tərəfindən davamlı şəkildə beynəlxalq platformalarda, o cümlədən Avropa İttifaqı institutları ilə təmaslarımız zamanı qaldırılsa da, AP üzvlərinin bu günədək bu məsələ ilə bağlı bir dənə də olsun bəyanat verməməsi təəssüf doğurur. AP üzvlərinin diqqətinə çatdırmaq istərdik ki, Qarabağdakı bütün abidələr Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur. Azərbaycan multikultural ölkədir və ərazisindəki bütün abidələr dövlət səviyyəsində qorunur. Ölkəmizin zəngin irsinin mühafizəsi bundan sonra da yüksək səviyyədə təmin ediləcək, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki abidələrin bərpası, təmiri və yenidən qurulması işləri həyata keçiriləcəkdir".

İŞİMİZ, GÜZƏRANIMIZ

# İlham Əliyev növbəti 10 il üçün Milli Prioritetləri təsdiq etdi

## Rəqabətqabiliyyətli iqtisadiyyat, ədalətli cəmiyyət, müasir innovasiyalar, böyük qayıdış və təmiz ətraf mühit



*Əvvəli 1-ci səh.*

Odur ki, prioritetlər iqtisadi artımın davamlı olmasını, milli iqtisadiyyatın daha da şaxələndirilməsini, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmasını qarşıya məqsəd qoyur. Qarşıdakı dövrdə neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir. Çünki yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. İqtisadi artım, eləcə də qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir.

Prioritetlərdə makroiqtisadi sabitlik nəzərdə tutulur ki, bunun da əsas meyarı qiymətlərin aşağı və stabil olmasının təmin edilməsidir. Makroiqtisadi sabitliyin digər mühüm meyarı olan dayanıqlı maliyyə sabitliyi maliyyə bazarlarının daim səmərəli fəaliyyət göstərməsini, maliyyə dərinliyinin artmasını və maliyyəyə çıxışın genişlənməsini şərtləndirməlidir.

Qeyd edək ki, Milli Prioritetlər, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan dövlətinin siyasətinin mərkəzində daim vətəndaşın maraqları dayanır. Bu, prioritetlərdə də özünü aydın göstərir. Qeyd olunur ki, iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq, onların iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Çünki yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amildir. Prioritetlər də məhz iqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsinin təmin edilməsini, əməkhaqqının artımının əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmasını nəzərdə tutur. Bu baxımdan paytaxtın və regionların inkişafının tarazlı şəkildə aparılması böyük əhəmiyyət daşıyır. Odur ki, regionların sürətli inkişafı insanların keyfiyyətli iqtisadi imkanlara və fiziki infrastruktura çıxışı ilə müşayiət edilməlidir. Rayonlar Bakı ilə müqayisə edilə biləcək yaşayış standartlarına malik olmalıdır. Ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsi təmin edilməlidir.

Vətəndaşların uzunömürlülüyü və sağlam həyat tərzi yenə də diqqət mərkəzindədir. Bu, vətəndaşların məhsuldar fəaliyyəti və sosial rifahının artırılması üçün çox vacibdir. Prioritetlərdə sağlamlığın və uzunömürlülüyün ölkədə səhiyyə sisteminin keyfiyyətindən birbaşa asılı olacağı bildirilir.

Azərbaycanda XXI əsrin tələblərinə uyğun təhsilin təşkili də prioritetlər sırasındadır. Çünki dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. İnsan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə məhz təhsil vasitəsilə artırılmalıdır.

Prioritetlərdə işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməsi, bu regionun ölkənin ən abad guşələrindən birinə çevrilməsi də əsas yer tutur. Burada müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır.

Düşmən üzərində qazandığımız qələbənin əbədiləşdirilməsi üçün vaxtilə öz doğma torpaqlarından köçkün düşmüş insanların yurd-yuvalarına qayıdışı böyük önəm kəsb edir. Bu böyük qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşması ilə yanaşı, həmin ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında da bir körpü olacaq.

Azərbaycan həmçinin təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi nümunəyə çevriləcək. Bunun üçün ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Strateji dövrdə bu prioritet daxilində iki məqsədin səmərəli şəkildə reallaşdırılmasına nail olunmalıdır ki, bunlardan biri yüksəkkeyfiyyətli ekoloji mühit, digəri isə "yaşıl enerji" məkanıdır. Yeni ölkədə keyfiyyətli və təmiz ekoloji mühit qorunmalı və resurslardan səmərəli istifadə təmin edilməlidir. Sözügedən dövrdə qabaqcıl ölkələrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin artacağı gözlənilir. Azərbaycanda da enerjidən səmərəli istifadə edilməsinə və yeni dayanıqlı enerji mənbələrinə üstünlük veriləcək. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi vacib sayılır.

Qarşıdakı illərdə uzun müddət ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olacaq. İqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılacaq. Bu məqsədlə ölkədə ümumi ərazidə yaşıllıqların payı artırılacaq. Başqa sözlə, Azərbaycan başdan-başa çiçəklənən bağa çevriləcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# SOCAR İtaliya şirkətləri ilə mühəndislik, təchizat və tikinti sazişi imzalayıb

SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun (NEZ) modernizasiya və yenidənqurma layihəsi çərçivəsində "Maire Tecnimont S.p.A." qrupunun törəmələri olan "Tecnimont S.p.A." və "KT-Kinetics Technology S.p.A." şirkətləri ilə 2 mühəndislik, təchizat və tikinti (EPC) sazişi imzalanıb.

İmzalanma mərasimində SOCAR-ın prezidenti Rövnəq Abdullayev, İtaliyanın Azərbaycandakı səfiri Augusto Massari, "Maire Tecnimont" qrupunun idarə heyətinin sədri və əsas səhmdarı Fabrizio Di Amato, "Maire Tecnimont" qrupunun baş icraçı direktoru Pierroberto Folgiero və şirkətlərin digər rəhbər şəxsləri iştirak ediblər.

Sazişlər Heydər Əliyev adına NEZ-də istehsal olunan benzinin keyfiyyətinin "Avro-5" standartına yüksəldilməsində həlledici əhəmiyyətə malik Katalitik krekinq qurğusundan alınan benzin fraksiyasının hidrotəmizlənməsi qurğusunun və LPG (maye qaz) merkaptan oksidləşdirici qurğusunun, Aminlə təmizlənmə və LPG-nin ilkin emalı qurğularının quraşdırılmasını əhatə edir. Qeyd edək ki, "Tecnimont" və "KT-Kinetics Technology" şirkətləri digər qurğulara dair tenderin qalibi seçilərək 2018-ci ildə imzalanmış EPC sazişinə əsasən artıq bu zavodun modernizasiyası layihəsində birgə fəaliyyət göstərir.

Ümumi dəyəri təxminən 160 milyon ABŞ dolları olan yeni EPC sazişləri üzrə işlərin müvafiq olaraq 33 və 26 ay ərzində başa çatacağı gözlənilir.

Bu, "Maire Tecnimont" qrupunun əsas fəaliyyət sahəsində mühüm bir mərhələdir, belə ki, sazişlər qrupun Azərbaycan bazarında və emal sektorunda mövqeyinin möhkəmlənməsinə imkan verir. Bundan əlavə, qrupun unikal qabiliyyətlərinin, texnoloji təcrübəsinin və EPC podratçılar arasındakı sinerjisinin gücləndirilməsi istiqamətində fəaliyyətini təsdiqləyir.

R.Abdullayev deyib: "SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodu Cənubi Qafqaz regionunda yeganə neft emalı kompleksi kimi böyük rol oynayır. Zavod regionun yanacaq təchizatını həyata keçirir və SOCAR-ın neft-kimya müəssisələrini xammal ilə təmin edir. NEZ-in yenidən qurulması dizel yanacağının və benzinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq "Avro-5" standartına uyğunlaşdıracaq, eyni zamanda Azərbaycanın neft-kimya sənayesi üçün davamlı və səmərəli xammal bazası yaradacaq. Yenidənqurma işləri iqtisadi və ekoloji baxımdan da mühüm əhəmiyyət daşıyır və şəhərlərimizdə həyat keyfiyyətinin yüksəldilməsi üçün vacibdir. Biz dəfələrlə dost münasibətini gördüyümüz İtaliyanın yaradıcı və istedadlı ruhunu özündə daşıyan tanınmış "Maire Tecnimont" qrupu ilə bu alicənab məqsəd naminə əməkdaşlıq etməkdən məmnunuq".

"Maire Tecnimont"un baş icraçı direktoru P.Folgiero qeyd edib: "Texnoloji təcrübəmizi bir daha SOCAR kimi tarixi və nüfuzlu bir sifarişçinin xidmətinə təqdim etməkdən və bununla da Azərbaycanın daunstrim dəyər zəncirində daha böyük bir dəyərin açılmasına yönəlmiş uzunmüddətli, uğurlu əməkdaşlığımızı möhkəmləndirməkdən həqiqətən şərəf duyuruq. Bu nailiyyət qarşılıqlı faydalı münasibətlərimizi genişləndirməyə imkan verir və texnologiyaya əsaslanan strategiyamızın etibarlılığını təsdiq edəcək gələcək inkişafa yol açır".

Milan Fond Birjasında qeydə alınmış "Maire Tecnimont S.p.A." təbii ehtiyatların emalı üzrə qlobal sənayenin (texnoloji və icra təcrübəsinə malik daunstrim neft və qaz mühəndisliyi) lideri olan bir qrupa başçılıq edir. Onun törəməsi olan "NextChem" enerji keçidinin dəstəklənməsi istiqamətində ekoloji təmiz kimyəvi maddələr və texnologiyalar sahəsində fəaliyyət göstərir. "Maire Tecnimont" qrupu özündə 45 ölkədə fəaliyyət göstərən 50 şirkəti birləşdirir. Qrupun 9100 əməkdaşı var.

# Ağdaşda əsas kapitala yönəldilən vəsaitlərin həcmi 63,6 faiz artıb

Ağdaş rayonunda iqtisadi və sosial sahələrin inkişafı üçün 2020-ci ildə əsas kapitala bütün maliyyə mənbələrindən 64 milyon 259,7 min manat vəsait yönəldilib ki, bu da inişilki göstəricidən 63,6 faiz çoxdur.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, əsas kapitala yönəldilən vəsaitlərin 62 milyon 238,9 min manatını və ya 96,9 faizini tikinti-quraşdırma işləri təşkil edib. Bu sahə üzrə artım inişilki ilə nisbətən 25 milyon manat və ya 66,9 faiz olub. Tikinti-quraşdırma işlərinə cəlb olunan vəsaitin 14,4 milyon manatı daxili imkanlar hesabınadır. Daxili imkanlar hesabına bu vəsait 2,6 dəfə artıb.



Ötən il rayonda tikinti-quraşdırma işlərinin 47 milyon 808,5 min manatı və ya 76,8 faizi dövlət, 14 milyon 430,4 min manatı və ya 23,2 faizi qeyri-dövlət mülkiyyətinin payına düşüb.

# "Biznesini yarat marafonu" başladı




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi və Gənclər Fondunun birgə icra etdiyi "Gənclərin Dayanıqlı Məşğulluğu Proqramı" çərçivəsində ilk layihəyə - "Biznesini Yarat Marafonu"na start verilir.

Layihənin məqsədi işsiz və işaxtaran gənclərin biznes ideyalarını reallaşdırmalarına, məşğulluq imkanlarına yiyələnmələrinə özünüməşğulluq proqramı vasitəsilə dəstək olmaqdır.

Marafona qoşulmaq üçün gənclər reallaşdırmaq istədikləri biznes ideyalarını qısa videoçarx şəklində gənc.az saytına yerləşdirməlidir. Bu ideyalar "Qiymətləndirmə komissiyası" tərəfindən dəyərləndiriləcək. Biznes ideyası uyğun hesab edilən gənclər təlimə cəlb ediləcək.

Təlimi uğurla başa vuran 150 gəncə ideyalarını reallaşdırmaq üçün Dövlət Məşğulluq Agentliyinin icra etdiyi özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim ediləcək.

Layihənin icrası zamanı işsiz və işaxtaran, ixtisası və peşəsi olmayan, əmək qabiliyyətli əlilliyi olan gənclərlə yanaşı, Vətən müharibəsində iştirak etmiş, müharibədən zərərçəkmiş, habelə şəhid ailəsinin üzvü olan gənclərə üstünlük veriləcək.

Videomüraciətlərin qəbulu 3 fevral tarixindən başlayır və 1 ay davam edəcək.

# Ötən il Masallıda kənd təsərrüfatı məhsullarının istehsalında artım qeydə alınıb

Ötən il Masallı rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı 23,3 faiz, o cümlədən heyvandarlıq məhsulları 20,5, bitkiçilik məhsulları isə 6,1 faiz artıb.

Bu barədə Masallı Rayon Statistika İdarəsindən AZƏRTAC-a məlumat verilib. Bildirilib ki, ötən il rayonda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyərinin 45,7 faizini bitkiçilik məhsulları, 54,3 faizini isə heyvandarlıq məhsulları təşkil edib.

# Bütün yeni yollar Qarabağdan keçir

*Əvvəli 1-ci səh.*

Ermənilər bu şəhərin ölkəmiz üçün nə qədər əhəmiyyətli olduğunu bilir və həmin səbəbdən də isterika içindədirlər.

Prezident İlham Əliyevin Şuşaya çəkilən magistral yolu "Zəfər yolu" adlandırması da təsadüfi deyil. Bu yolboyu torpaqların hər qarışına şəhid və qazilərimizin qanı qarışıb. Başqa sözlə, qəhrəman Azərbaycan Ordusu döyüşərək, şəhidlər verərək Şuşanı düşməndən azad edib, zəfər qazanıb. Odur ki, həmin yol Azərbaycan tarixində həm də şanlı qələbəyə aparan müqəddəs yol kimi qalacaq.

"Zəfər yolu"nda işlər sürətlə gedir. Cəmi iki ay ərzində yol genişləndirilib, onun üçün torpaq yatağı inşa edilib. Hazırda bu yoldan Şuşaya gediş-gəliş üçün istifadə olunur. Sentyabr ayınadək isə iki hərəkət zolaqlı yolun asfaltlaşdırılaraq istifadəyə verilməsi nəzərdə tutulub.

Tikinti işləri Füzuli şəhərindən başlayaraq yeni tras üzrə hazırlanmış layihə əsasında aparılır. Bu tras iri yaşayış məntəqələrindən, həmçinin məşhur Topxana meşəliyindən yan keçməklə inşa edilir.

Yeni layihə aparılan araşdırmaların nəticələrinə əsasən tərtib olunub. Çətin relyefə malik ərazilərdə, dolaylarda tikiləcək körpü və tunellər hesabına yolun uzunluğu 17 kilometrə qədər qısalaraq 84,6 kilometr təşkil edəcək. İlkin hesablamalara görə, inşa ediləcək tunellərin ümumi uzunluğu təqribən 3 kilometr olacaq. Bununla yanaşı, yeni trasda müxtəlif səviyyəli yol qovşaqlarının inşası da nəzərdə tutulur.



Artıq Şuşa şəhərinədək 101,5 kilometrlik tras üzrə 2 hərəkət zolağı enində olmaqla xidməti yol istifadəyə verilib. Bu hissədə 2 hərəkət zolağı enində torpaq genişləndirilərək yol yatağı və yol əsası inşa edilib.

Yeni Füzuli-Şuşa avtomobil yolunun 4-6 hərəkət zolağından ibarət olması nəzərdə tutulur. Artıq yolun ilk 6 kilometrlik hissəsində, həmçinin 27-ci kilometrdən başlayaraq 4 kilometrlik hissəsində torpaq işləri yekunlaşdırılıb və yeni yol əsası inşa edilib.

Füzuli-Şuşa avtomobil yolu inşasına artıq start verilmiş Füzuli Beynəlxalq Hava Limanı yaxınlığından keçir. Bu səbəbdən layihədə magistral yolu hava limanı ilə əlaqələndirmək məqsədilə yol qovşağının və aerovağzala giriş yolunun inşası da nəzərdə tutulur. Həmçinin yeni tras üzrə hazırlanan layihəyə Şuşanın məşhur İsa bulağınadək əlavə 2 kilometrlik yolun inşası da daxil edilib. İsa bulağı yolu başlanğıcını yeni Füzuli-Şuşa avtomobil yolunun təqribən 82-ci kilometrindən götürəcək və Laçın-Şuşa-Xankəndi avtomobil yolunun uzunluğu 900 metr olan tunel vasitəsilə keçməklə inşa olunacaq.

Yeni Füzuli-Şuşa magistral avtomobil yolu başlanğıcını Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi magistral yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçir. Yolun tikintisinin qısa müddət ərzində yekunlaşdırılması üçün layihə şərti olaraq 5 hissəyə bölünüb. Əsas qüvvə olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin işçiləri və texnikaları hazırda yolboyu tikinti işlərini həyata keçirir. Bundan başqa, çətin relyefli ərazilərdə avtomobil yollarının inşası sahəsində təcrübəyə malik "Kolin İnşaat" başda olmaqla, Türk Şirkətlər Qrupu və bir yerli tikinti şirkəti də işləri sürətlə aparmaq məqsədilə layihəyə cəlb edilib.

Prezident İlham Əliyev işğaldan azad olunan bölgəyə səfəri zamanı Füzuli hava limanının təməlqoyma mərasimidə demişdir: "Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# SKSP-də indiyədək 24 sahibkarlıq subyektinə rezident statusu verilib

"Regionun ən böyük sənaye zonası olan Sumqayıt Kimya Sənaye Parkında (SKSP) indiyədək 24 sahibkarlıq subyektinə rezident statusu verilib".

AZƏRTAC xəbər verir ki, bu sözləri iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. Nazir qeyd edib ki, növbəti mərhələdə 400 milyon manatdan çox investisiyanın qoyulması və 900-dək daimi iş yerinin yaradılması nəzərdə tutulur.

# Mingəçevirdə xoş ovqat yaşanır

İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinin əsas strateji hədəfləri sırasında ölkəmizin enerji regionu olan Mingəçevir də var idi. 44 gün davam edən müharibə zamanı mənfur düşmən şəhəri dəfələrə raket, artilleriya atəşlərinə məruz qoymuşdu.

Döyüş meydanından kifayət qədər uzaqda yerləşən Mingəçevirin hədəf seçilməsində məqsəd, ölkəni elektirik enerjisi ilə təmin edən istilik və su elektrik stansiyalarını sıradan çıxarmaq idi. Mənfur düşmən məqsədinə çatmasa da, şəhər ərazisinə atılan mərmilər bütövlükdə 45 evə müxtəlif dərəcəli zərər vurdu.



Qələbədən sonra müharibədən zərərçəkmiş ərazilərdə təmir-tikinti və bərpa işlərinə start verilmişdir. Dövlət başçısının müvafiq sərəncamına uyğun olaraq yaradılmış Dövlət Komissiyası mütəxəssislərdən ibarət işçi qrupları vasitəsilə 10 mindən artıq obyektə baxış keçirərək görüləcək zəruri təmir-tikinti və bərpa işlərinin miqyasını müəyyən etmişdir.

Hazırda təmir-bərpa işləri ilk mərhələdədir. Zərərçəkmiş evlərin sahibləri görülən işlərdən məmnundurlar. Şəhərin Bozdağ küçəsi 11A ünvanıda yaşayan İnqilab Məmmədov:

- Düşmənin atdığı mərmi evimizi demək olar tamamilə yararsız vəziyyətə salmışdır. Bu, ailəmiz üçün ciddi problem olsa da, üzülmədik. Qəhrəman Azərbaycan əsgərinin qazandığı parlaq qələbə bizim üçün ən böyük təsəlli oldu. Biz o vaxtda da, elə indi də deyirik ki, evimiz, var-dövlətimiz, canımız bizə qələbə sevinci yaşadan əsgərlərimizə, müzəffər Ali Baş Komandanımıza qurban. Artıq tikinti işlərinə başlanıb. İnanırıq ki, evimiz əvvəlkindən də gözəl olacaqdır.

Bu günlər nur şəhərində xoş ovqat yaşanır. Energetiklər şəhərinin sakinləri dövlətin hər evə, hər ailəyə ünvanlanan qayğısını məmnunluq hissi ilə qarşılayırlar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Biz birlikdə güclüyük!

# Rəşad MAHMUDOV: “İnsanlarımızı vaksinasiyaya ciddi yanaşmağa dəvət edirəm”



Milli Məclisin deputatı, tibb elmləri doktoru, ürək-damar cərrahı Rəşad Mahmudov Azərbaycanda koronavirusla bağlı vəziyyət və bu infeksiyaya qarşı aparılan vaksinasiya prosesi ilə bağlı müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

*- Rəşad müəllim, Azərbaycan tədricən antipandemiya mərhələsinə doğru irəliləyir. Tədris müəssisələrinin, müəyyən sahələrin fəaliyyəti artıq bərpa olunub. Yoluxma sayı azalsa da, epidemioloji vəziyyət hələ ciddi olaraq qiymətləndirilir. Bu kontekstdə karantin rejiminin yumşaldılmasını necə qiymətləndirirsiniz?*

- Əlbəttə, dünyada hər bir milyon insana düşən yoluxma-xəstə sayına, yoluxmanın sürətinə, xəstəxanalarda yataqların doluluq nisbətinə baxdıqda və bu ümumi göstəriciləri ölkəmizlə müqayisə etdikdə vəziyyətin bizdə nə qədər yaxşı olduğunu görə bilərik. Bu reallığı ifadə etməkdə hər hansı bir şişirtmə yoxdur. Sözsüz ki, bu, virusun həm epidemioloji vəziyyəti ilə bağlıdır, həm də hər bir bölgənin bəlli dönəmdə dalğa sürəti var. Eləcə də ölkədə bu günə qədər görülən epidemioloji tədbirlər və verilən qərarların bir daha doğru olduğunu göstərir.

Düşünürəm ki, bugünkü reallıq, əlbəttə, mərhələli şəkildə karantin rejiminin daha da yumşaldılmasını zəruri edib. Dövlət də bu istiqamətdə addımlarını atır. Ancaq mən bu işi iki bucaqlı və iti bıçağa bənzədirəm. Yəni heç bir tərəfdən əminliklə konkret addım atmaq mümkün deyil. Başqa sözlə, biz hər şey bitmiş kimi davranıb, kəskin hərəkətlər etdiyimiz zaman bıçağın bir ucu əlimizi kəsə bilər. Və yaxud digərinə ciddi yanaşdığımız zaman iqtisadi-sosial, mədəni və psixoloji problemlərə gətirib çıxara bilər. Odur ki, cəmiyyət dövlətin verdiyi qərarlara uyğun şəkildə və birlikdə hərəkət etməlidir. Ən başlıcası dövlət və cəmiyyət arasında olan həmrəyliyi Operativ Qərargah daha çox hiss etdikcə dünyadakı nisbi bilgilər daxilində bir sonrakı atılacaq addımlar və qərarlar daha rahat, güvənli olacaq. Onu da deyim ki, fevralın 1-dən etibarən başlanan yumşalmadan sonra cəmiyyətin hər bir üzvünün üzərinə böyük məsuliyyət düşür. O mənada ki, bu yumşalmadan insanlarımız faydalanır, hər bir şəxsin özünün azadlığından başqa iş yerlərinin açılması ilə evinə çörək aparmaq imkanı yaranır. Bu insanların haqlarına toxunmamaq üçün biz daha çox diqqətli olmalıyıq. Preventiv tədbirlərə əhəmiyyət verməliyik. Sosial məsafəni qorumaq, maska taxmaq, şübhə varsa, ümumi ictimai yerlərdən kənarda durmaq lazımdır.

*- Türkiyə, Rusiya, Gürcüstan və İranda yoluxma sayı yüksək olaraq qalır. Eləcə də bəzi insanlar hələ də preventiv qaydalara əməl etmir. Bunları nəzərə alaraq yenidən qapanmalara gedilməsi ehtimalı varmı?*

- Əlbəttə, konkret gedişatı heç kim deyə bilməz. Sadəcə mən ölkəmizdə mövcud olan son dörd aydakı tendensiyanı nəzərə almaqla yaz aylarında böyük bir dalğanın müşahidə edilməsi ehtimalını görmürəm. Ancaq bu, bizim rahatlanmağımız üçün səbəb ola bilməz. Sadəcə, ehtimal olunmur. İnsanlar virusdan qorunmaqda davam etməli, verilən tövsiyələrə əməl etməlidirlər.

*- Beynəlxalq mütəxəssislər bildirirlər ki, əhalinin 50 faizdən çoxu virusa yoluxduqdan sonra vəziyyət normallaşmağa doğru gedəcək, yumşalma ilə bağlı istənilən qərarı qəbul etmək olacaq. Ölkəmizdə ümumi yoluxma sayını nəzərə alsaq, sizin bununla bağlı fikrinizi bilmək istərdik.*

- Adətən dünyada yanaşma belədir ki, 50-70 faiz yoluxmadan sonra bu mümkündür. Mənim düşüncəm belədir ki, hər nə qədər aqressivliyi davam etsə belə, həm virusu tanıma, həm onunla mübarizə, həm də insanların ümumi məlumatlanması və daha vacibi vaksinlərin əlimizdə olması ilə hər keçən gün virusdan daha az qorxacağıq.

*- Yəni düşünürsünüz ki, iqtisadi açılıma da getmək olar?*

- Əlbəttə, qorxu azaldıqca və karantin rejimi yumşaldıqca iqtisadi açılımlara getmək təbii haldır. Düşünürəm ki, hazırkı epidemioloji vəziyyət mərhələli şəkildə iqtisadiyyatın açılımını mümkün edir.

*- Avropada artıq üçüncü dalğa haqqında fikirlər səsləndirilir...*

- Onun haqqında heç kim konkret heç nə deyə bilməz. Mən hazırda ölkəmiz üçün üçüncü dalğa təhlükəsini gözləmirəm.

*- Azərbaycanda vaksinasiyaya start verilib. Gedişatı necə qiymətləndirirsiniz?*

- Vaksinləşmə könüllüdür. Koronavirusdan qurtulmağın vaksinasiyadan başqa yolu yoxdur. Odur ki, insanlarımızı vaksinasiyaya ciddi yanaşmağa dəvət edirəm.

# Hər kəs qaydalara məsuliyyətlə yanaşmağa davam etməlidir

Əvvəli 1-ci səh.



Yan təsir kimi daha çox vaksin vurulan yerdə yüngül ağrı, həssaslıq hiss edilə, bir-iki gün sonra qızdırma müşahidə oluna bilər. Bu, bütün peyvəndlərdə qeydə alınır və ciddi yan təsir hesab olunmur.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancının sözlərinə görə, peyvəndlər haqqında indiyədək məlum olan faktlar onların ölüm və ağır xəstələnmə hallarını azaltmasıdır. Bu səbəbdən vaksinlərin ilk olaraq səhiyyə işçiləri və yaşlı vətəndaşlara tətbiqi tövsiyə edilir: “Peyvəndlərin yoluxmanı azaltmasına dair tam məlumat yoxdur. Bu məlumatlar qarşıdakı dövrdə əldə olunacaq. Pandemiyanı sadəcə peyvəndlə nəzarətdə saxlamağa dair də kəskin sübut yoxdur. Koronavirus pandemiyasını nəzarət altında saxlamaq üçün mövcud olan bütün vasitələrdən istifadə etməyə ehtiyac var. Peyvəndlə ölüm hallarının qarşısını almağa və səhiyyə sisteminin üzərinə düşən yükü azaltmağa çalışırıq. Bir müddətdən sonra peyvəndin pandemiyanın dinamikası üzərində təsirini çox yaxşı anlayacağıq”.

H.Harmancı deyib ki, Azərbaycanda dekabrın sonlarından, xüsusilə son həftələrdə koronavirusa yoluxma hallarında azalma müşahidə olunur. Ümumdünya Səhiyyə Təşkilatının belə bir meyarı var: aparılan testlər arasında pozitiv nəticələrin payının 5 faizdən az olması ictimai səhiyyə tədbirlərinin yumşaldılmasına izin verir. Son həftələrdə pozitiv nəticələrin payı 5 faizdən az oldu və hətta bir neçə dəfə yoluxma sayı ikirəqəmli ədədlərə endi. Bunlar yaxşı xəbərlərdir və hökumətin aldığı yumşalma qərarlarının səbəbidir. Lakin çox arxayınlaşmamalıyıq. Çünki koronavirusun yeni mutasiyasının xüsusiyyətlərinin öyrənilməsi istiqamətində tədqiqatlar davam edir: “Koronavirus çox sürətlə mutasiya edən virus olmasa da, biz onun yeni növlərinin çıxacağını istisna etmirik. Koronavirus dünyada qaldıqca onun yeni mutasiyalarının üzə çıxması qaçılmazdır. Bizim üçün önəmli olan yeni variantın daha çox xəstələndirmə, daha çox öldürmə qabiliyyətinin öyrənilməsini, əlimizdə olan diaqnostik testlərin onun aşkarlanması üçün yetərli olmasını, peyvəndin yeni növə qarşı təsirini bilməkdir. Hazırda bu suallara cavab axtarılır. İlkin tədqiqatlara görə, “Britaniya ştammı”nın daha çox yoluxdurucu olması, mövcud testlər vasitəsilə aşkarlana bilməsi və hazırlanan peyvəndlərin həmin ştamma qarşı təsirli olması müəyyənləşib”.

Ölkəmizdə vaksinasiya prosesinə yanvarın 18-dən start verilib. Bu ilk olaraq səhiyyə işçilərinin peyvəndlənməsi ilə başlanılıb və mərhələli şəkildə həyata keçirilir. Proses genişləndikdən sonra ölkədə vəziyyətin daha da yaxşılaşacağına ümidlər çoxdur. Prezident İlham Əliyev də Azərbaycan Televiziyasına müsahibəsində ölkədə aparılan vaksinləmə prosesindən danışarkən həyata keçirilən işləri müsbət qiymətləndirib. Dövlət başçısı Azərbaycanın Cənubi Qafqazda vaksinasiyaya start verən ilk ölkə olduğunu qeyd edib: “Eyni zamanda yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Biz COVAKS təşəbbüsünün üzvüyük və COVAKS xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik. Eyni zamanda biz bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlamışıq. Amma onların bəzilərinin icrası indi yubanır, yəqin ki, bax dediyim bu səbəblərə görə. Eyni zamanda biz artıq 4 milyon doz vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib, Çin istehsalı olan vaksinlər. Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar, əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür”.

Vaksinasiya üçün randevunun götürülmə qaydası da açıqlanıb. COVID peyvəndi üçün randevu götürülməsi təlimatında bildirilib ki, “randevu.its.gov.az” saytından qeydiyyatdan keçmək üçün vətəndaş şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və FİN məlumatı daxil edilir. “Tibb müəssisəsi” bölməsindən vaksinasiya aparılan məntəqənin adını həm ünvana, həm də məntəqə adına görə axtarmaqla seçim edilir. Məntəqə seçimindən sonra peyvənd olunacaq tarix və saat seçilir, həmçinin məlumatlandırma üçün mobil nömrə qeyd olunur. Təsdiq edildikdən sonra mobil nömrəyə SMS vasitəsilə bildiriş göndərilir. Təlimatda qeyd edilib ki, vətəndaş qeyd edilən randevu vaxtını və ya məntəqəni dəyişmək istədikdə göstərilən prosesi yenidən icra etməlidir. Gün ərzində 3 dəfə randevu dəyişikliyinə icazə verilir.

“Vaksinasiyanın ilk dozası üçün randevu götürüldükdə avtomatik 2-ci doza üçün də 28 gün sonra həmin müəssisəyə və həmin saat aralığına randevu seçilir. İlk dəfə randevu götürən şəxs ikinci dəfə randevunu dəyişmək istədikdə əvvəlki vaksinasiya randevuları ləğv edilib yenisi ilə əvəz edilir. Seçilən məntəqədə randevu limiti dolan tarix və ya saat aralıqları passiv edilir və seçilməsi mümkün olmayacaq”, - deyə təlimatda qeyd olunub. Özünü, ailəsini, ətrafdakıları qorumaq istəyən hər kəs könüllü şəkildə müraciət edərək peyvənd edilə bilər. Peyvənd cəmiyyətimizin bu bəladan qurtulması və əvvəlki həyatımıza dönmək üçün yeganə ümid yeridir.

Hazırda Azərbaycanda epidemioloji vəziyyət nisbətən stabildir və müəyyən yumşalmalara gedilib. COVID-19 infeksiyasına gündəlik yoluxma sayının 4 mindən düşməsi və rəqəmlərin 100-200 arasında dəyişməsi şübhəsiz ki, tətbiq edilən məhdudiyyətlərin və vətəndaşların qaydalara məsuliyyətli yanaşmasının nəticəsidir. Lakin bu, heç də arxayınlaşmağa səbəb olmamalı, mövcud vəziyyəti qoruyub saxlamaq üçün qaydalara riayət edilməlidir. İnfeksiyaya yoluxanların statistikasında yaranan sabitlik hələ virusun aradan qalxması demək deyil. Unutmamalıyıq ki, nə dünyada, nə də Azərbaycanda pandemiya bitməyib. Məhdudiyyətlər götürüldüyü zaman istər-istəməz rəqəmlər yenidən artacaq. Ona görə də hər kəs qaydalara məsuliyyətli yanaşmağa davam etməlidir. Məhz bu zaman mövcud vəziyyəti olduğu kimi saxlaya bilərik.

***Xəyalə MURADLI, “Azərbaycan”***




# “Fevral məruzələri 2021: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı” beynəlxalq elmi-praktik konfrans keçirilir

“Azərbaycan Hava Yolları” QSC-nin Milli Aviasiya Akademiyasının (MAA) təşkilatçılığı ilə Azərbaycanda Gənclər Gününə və ölkəmizin ilk telekommunikasiya peyki “Azerspace 1”in orbitə çıxarılması tarixinə həsr olunmuş “Fevral məruzələri 2021: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı” mövzusunda VI Beynəlxalq elmi-praktik gənclər konfransı onlayn formatda öz işinə başlayıb.




Akademiyadan AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, “Azərbaycan Hava Yolları” QSC, Azərbaycan Mühəndislik Akademiyası və “Azərkosmos” ASC-nin dəstəyi ilə keçirilən beynəlxalq konfransın işinə ABŞ, Rusiya, Türkiyə, Ukrayna, İsrail, Almaniya, Çexiya, Qazaxıstan və Azərbaycandan olan 30-dan çox elm və təhsil müəssisəsini, o cümlədən 10 universiteti, 15 elmi mərkəzi, 5 dövlət qurumunu, 3 aparıcı firmanı təmsil edən 150-dən çox iştirakçı qatılıb.

Konfransı giriş sözü ilə açan MAA-nın birinci prorektoru, professor Ədalət Səmədov MAA-nın rektoru, akademik Arif Paşayevin konfrans iştirakçılarına təbrikini oxuyub.

Qeyd edilib ki, konfransda 8 bölmə üzrə aerokosmik sahənin, mülki aviasiya və nəqliyyat, informasiya texnologiyaları, radioelektronika, fizika, kimya, iqtisadiyyat və hüquq sahələrinin aktual problemlərinə həsr edilmiş yüzə yaxın məruzə dinləniləcək. Konfrans çərçivəsində, həmçinin “Hava nəqliyyatında təhlükəsizlik: problemlər və perspektivlər” və “Təchizat zənciri menecmentinə müasir baxış və perspektivlər” mövzularında Azərbaycanın bu sahədə tanınmış alim və mütəxəssislərinin iştirakı ilə “dəyirmi masa”ların da keçirilməsi nəzərdə tutulub.

Professor Ə.Səmədov bildirib ki, “Fevral məruzələri 2020”dən sonra keçən il ərzində respublikamızın və xalqımızın həyatında çox əhəmiyyətli tarixi hadisə baş verib. 2020-ci il sentyabrın 27-dən noyabrın 9-na qədər olan 44 gün ərzində Prezident və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı Ordusu torpaqlarımızı 30 illik işğaldan azad edib. Bu tarixi Qələbə Ali Baş Komandanın müdrik siyasəti, dəmir iradəsi, dəqiq və düşünülmüş strategiyası, eyni zamanda döyüşçülərimizin cəsarəti, Azərbaycan xalqının dövlət başçısı ətrafında sıx birliyi sayəsində qazanılıb. Müasir hərbi texnologiyalardan istifadə etməklə döyüş əməliyyatlarının aparılma taktikası da öz əhəmiyyətli rolunu oynayıb.

Konfransda çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov deyib ki, məhz MAA-da aviakosmik sahə üçün yüksəkixtisaslı mütəxəssislərin hazırlığı uğurla həyata keçirilir. Yeni iqtisadiyyata keçid problemləri, regionların innovasiya inkişafının aparıcı texnologiya parkları kimi müəyyən edilməsi, ali məktəbin bu məsələnin həllində rolu və iştirakı akademiyada birinci dərəcəli məsələ kimi baxılır və bu, bizi çox sevindirir.

Plenar iclasda çıxış edən məruzəçilərin - konfransın sədri, MAA-nın aerokosmik məsələlər üzrə məsləhətçisi, akademik Roald Saqdeyevin “21-ci əsr: insanlığa qlobal çağırışlar - elm hansı çıxış yolunu təklif edir”, Odessa Milli Politexnik Universitetinin Kompüter Sistemləri İnstitutunun direktoru, professor Svetlana Antoşukun “Süni intellekt bu gün və sabah”, Rusiya Elmlər Akademiyasının V.A.Kotelnikov adına Radiotexnika və Elektronika İnstitutunun baş elmi işçisi, professor Aleksandr Potapovun “Radioelektron sistemlərdə qabaqcıl fraktal texnologiyalar”, İsraildən olan hərbi aviasiya üzrə ekspert Aleksandr Şulmanın “İsrail pilotsuz aviasiyasının yaranma tarixi”, Türkiyənin İnnovasiya Menecmenti və TRİZ İnstitutunun prezidenti, professor Ali Kutvanın “İnnovasiyaya sistemli yanaşma: TRİZ və innovasiya” mövzularında olan çıxışları konfrans iştirakçıları tərəfindən maraqla dinlənilib.

Konfransda həmçinin MAA-nın Nəqliyyat mexanikası kafedrasının müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, professor Əhəd Canəhmədov və Almaniyadan olan soydaşımız, professor Mesud Əfəndiyev çıxış ediblər.

“Fevral məruzələri 2021” Beynəlxalq konfransı fevralın 4-dək davam edəcək.

# Gəncə Dövlət Universitetində “Nizami Gəncəvi ili” çərçivəsində videokonfrans olmuşdur

Gəncə Dövlət Universitetində (GDU) “Microsoft Teams” proqramı vasitəsilə “Nizami Gəncəvi ili” adlı onlayn şəkildə videokonfrans keçirilmişdir.




Tədbirdə Milli Məclisin deputatı, universitetin elm və innovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə məruzə ilə çıxış edərək demişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi ili” elan edilməsi GDU-nun professor-müəllim heyəti tərəfindən də razılıqla qarşılanmışdır. Məruzəçi Prezident İlham Əliyevin bu sərəncamının dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi ərəfəsində bəşəri əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır.

Tədbirdə vurğulanmışdır ki, Heydər Əliyevlə başlanan ənənələr Ulu Öndərin özü qədər inandığı Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. 2021-ci ilin “Nizami Gəncəvi ili”, işğaldan azad olunmuş Şuşanın isə Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində görülən işlər Heydər Əliyev siyasətinin uğurlu davamının göstəricisidir.

Prezident İlham Əliyevə görə, Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir. Biz öz mədəniyyətimizi, mədəni irsimizi qorumalıyıq. Əsrlərboyu xalqımız öz mədəniyyətini qoruyub və bu, imkan verib ki, biz xalq kimi, millət kimi milli-mənəvi dəyərlərimizi, mədəniyyətimizi qoruya bilək.

Bildirilmişdir ki, Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli Lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə də Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

Sonra Milli Məclisin deputatı Müşfiq Cəfərov çıxış edərək Nizami Gəncəvinin ətraf mühit haqqında olan fikirlərindən danışmışdır. Bildirmişdir ki, əsasən XII əsrdə yaşayıb-yaratmış şair nəinki özündən sonrakı sələfləri üçün zəngin ədəbi irs, həmçinin elmin müxtəlif sahələrini əhatə edən külli miqdarda tədqiqat materialı qoyub getmişdir. İlk baxışda adama elə gəlir ki, “ekologiya” və “ekoloji problem” anlayışı son dövrün məhsuludur və orta əsrlərdə, xüsusən Nizami Gəncəvinin yaşadığı illərdə mövcud ola bilməzdi. Doğrudan da hələ kimya elminin kifayət qədər inkişaf etmədiyi, texnikanın mövcud olmadığı bir zamanda - ətraf mühiti çirkləndirən mənbələr yox ikən, hansı ekoloji problemlərdən danışmağa dəyərdi? Lakin maraqlıdır ki, bu gün bəşəriyyətin üzləşdiyi ekoloji təhlükəsizlik probleminə Nizaminin əsərlərində geniş toxunulur, onun həlli yolları araşdırılır. Qəzəl və qəsidələrindən tutmuş, “Xəmsə”yədək bütün əsərlərində ətraf mühit problemləri ilə qarşılaşmaq mümkündür.

Tədbirdə çıxış edən Ekologiya kafedrasının müdiri Sevda Əhmədova da vurğulamışdır ki, dünya poeziyasının dahisi Nizami Gəncəvinin əsərlərində insanın ekoloji tərbiyəsi əhəmiyyətli yerdə dayanır. Nizami Gəncəvi şair olmaqla yanaşı, onun əsərlərindən müəyyən etmək olur ki, o bir mütəxəssis olaraq da təbiət elmlərini mükəmməl bilən və onun təbliği ilə məşğul olan bir alim olmuşdur.

Universitetin professorları Xəlil Yusifli, Mübariz Yusifov və Yadigar Əliyev öz çıxışlarında qeyd etmişlər ki, Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamışdır. Əsərlərindən məlum olur ki, şair böyük divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi şöhrətlənmişdir. Lakin Şərq təzkirəçilərinin 20 min beyt həcmində olduğunu qeyd etdikləri bu divandakı şeirlərin çox az hissəsi dövrümüzədək gəlib çatmışdır. Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şeirlər yazmış, sonralar poemalarında irəli sürdüyü mütərəqqi ictimai-fəlsəfi fikirlərini ilk dəfə həmin şerlərində ifadə etmişdir. Nizami Gəncəvi lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir.

Nizamişünas alimlər Nizaminin əsərlərindən nümunələr gətirərək tədbiri daha da maraqlı etmişlər.

***Sabir ƏLİYEV, “Azərbaycan”***

# FHN-in əməkdaşları Türkiyədə ərazilərin minalardan təmizlənməsi üzrə kursları bitiriblər

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin 23 nəfərdən ibarət pirotexnik və istehkam qrupu Türkiyə Milli Müdafiə Nazirliyi Baş Qərargahının Bakı Silahlı Qüvvələr Attaşeliyinin təşkilatçılığı ilə qardaş ölkədə xüsusi mina axtarışı və təmizləmə kursunu müvəffəqiyyətlə bitirərək Azərbaycana qayıdıb.**




FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 3-29-da İzmirdə İstehkam Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilmiş kurslarda iştirak etmiş nazirliyin əməkdaşları ərazilərin minalardan təmizlənməsi və zərərsizləşdirilməsi sahəsində bilik və bacarıqlarını təkmilləşdiriblər. Kursun yekununda şəxsi heyətə təlim-tədris prosesini bitirmələri barədə sertifikatlar təqdim olunub.

Bundan əlavə, Türkiyə Milli Müdafiə Nazirliyi tərəfindən ikitərəfli əməkdaşlıq münasibətləri çərçivəsində Fövqəladə Hallar Nazirliyinə 10 xüsusi təlim keçmiş mina-axtaran it də hədiyyə edilib. FHN-in kinoloqlarının həmin itlərin ölkəmizə gətirilməsi, həmçinin müvafiq sahədə bacarıqlarının artırılması məqsədilə Türkiyəyə ezam olunması üçün hazırlıq işləri görülür.

# Qışda təravətli yubiley söhbətləri

**Nə yaxşı təvəllüd seçimi insanın öz öhdəsinə buraxılmayıb. Nəticədə nə baş verərdi? Qışı yaxına buraxan olmazdı. Ad günümüzdə, yubileyimizdə istər-istəməz qapalı məkana, otaq şəraitinə sığınardıq. Qışın hökmüdür, tabe olmalısan. Doğum evlərinin qapıları üç aylığa kilidli qalar, valideynlik arzusu ilə yaşayan ailələrdə mübahisələr bitib-tükənməzdi. Bu törənlərə qatılmaq istəməyənlərin əllərinə bəhanə düşərdi ki, qar-sazaqdır, çovğundur, yolları buz bağlayıb. Ədalətli Tanrımız isə əsrarəngiz dünyamızın balansını elə səliqə ilə tənzimləyib ki, yekunda artıq-əskik nəyinsə olmadığının fərqinə varırsan.**



İnsan təbiətin ağ örpəyini bir kənara atan güllü-çiçəkli yazda da, meşəsi, çayı, dənizi, bulağı gəl-gəl deyən yayda da, bol meyvəli payızda da dünyaya gələr. Fəqət mahiyyətindən boylanan sərt qış aurası dörd yanını özündən uzaq salar. Qismətinə qarlı fəsil düşər, simasından hər üçünün əlamətləri sezilər. Zənnimcə, 4 dekabr 1950-ci ildə Bakıda dünyaya gələn şəxsiyyəti, mənəvi keyfiyyətləri, ictimai, siyasi, elmi, ən əsası vətəndaş mövqeyi ilə ölkəmizdə böyük nüfuz qazanan Kamal Abdulla ilə istəməzdim bu mübahisənin səmimi notlara kökləndiyini müzakirə, müqayisə müstəvisinə çıxaraq. O nəyisə deyəcək, mənsə fikrimi konkret faktlarla əsaslandıracağam.

Bu işıqlı insanı, zəkalı alimi, novator yazıçını tərəddüd etmədən jurnalist adlandırar, söhbətimin əsas məğzini bu sahədəki ustalığının üzərində qurardım. Kamal müəllimi 30 ildir tanıyıram. İllər ərzində bizi yaxınlaşdıran başlıca dəyər xalqımız, dövlətimiz naminə çəkici eyni zindana vurmağımızdır. Açığını deyim, qarşılıqlı hörmətimizin səbəbkarı yubilyarın nə ad-sanı, tutduğu vəzifələri şərəflə daşıması, ədəbi, elmi-publisistik irsidir. Ən başlıcası mənəvi dəyərləri, bitkin obrazıdır.

Yaxşı yadımdadır ki, ölkə jurnalistlərinin 1-ci qurultayında media mənsublarımız Azərbaycan Mətbuat Şurasının İdarə Heyəti tərkibinə iki böyük dilçini də seçdilər. Nizami Cəfərovu və Kamal Abdullanı. Bununla da göstərdilər ki, mediamızın axsaq sahələrindən olan dil məsələsində də qayda-qanun yaradılmasının marağındadırlar. Etimad onların populyarlığından, elmi potensialından, ictimai fəallığından qaynaqlanırdı. Yəni jurnalistlərimiz səslərini gördükləri, tanıdıqları, imzaları mətbuat səhifələrindən düşməyən insanları yeni qurumun tərkibində görmək istəyirdilər.

O vaxt Kamal müəllimin Azərbaycan dilçiliyi ilə bağlı ölkə televiziyasının 1-ci kanalındakı verilişlərini hamı dinləməyə can atırdı. Həmin anlarda mavi ekran önünə minlərlə adam toplaşırdı, hər biri sərf etdiyi vaxta görə özündə rahatlıq tapırdı. Şikayətlər üzrə komissiyanın iclaslarında müzakirəyə çıxarılan yazılarla bağlı iradlar əksər nüanslarda mübahisələr və etirazlar doğururdu. Dil məsələlərinə gələndə cavabdehlər sakitcə dinləməyə üstünlük verirdilər. Kamal müəllim razı qalmayanları rektoru olduğu universitetə dəvət edir, orada ciddi əsaslarla, belə desək, həmin şəxsin suyunu çıxarırdı.

İclasların birində kimsə Nizami müəllimdən yarızarafat, yarıciddi soruşdu ki, Azərbaycanda hazırda ən güclü dilçi kimi görürsən? Akademik üçüncü yerə namizədlərin çoxluğunu əsas götürərək ad çəkmədi. Birinci yerə gəlincə dedi: “Mənnən Kamal müəllim”. Çox təəssüf ki, Mətbuat Şurasında cəmi 10 il birgə yol getdik. Nə edəsən? Kamal müəllim intellektinə, təşkilatçılığına, bacarığına görə dövlətçiliyimizin daim ehtiyac duyduğu simalarından olduğundan, konkret desək, işlərinin çoxluğundan Mətbuat Şurasından getdi. Əlaqəni heç vaxt kəsmədi, iki daş arasında olsa belə çağırışlarımıza, dəvətlərimizə müsbət cavab verdi. Açığını deyim, yenə yeri həmişə görünür. Kamal müəllimi səciyyələndirənlərin əksəri alim, tədqiqatçı, yazıçı, şair ifadələrini işlədirlər. Nədənsə jurnalist kənarda qalır. Gördüklərim, müşahidə etdiklərim əsas verir cəsarətlə deyəm ki, Kamal müəllim, sözün əsl mənasında jurnalistdir. Yaxşı bilirsiniz ki, publisistika jurnalistikaya hörmət qazandıran, onu nüfuza mindirən başlıca dəyərdir. Elə isə hamılıqla jurnalist kəlməsini də ona mənsub olanların sırasına yazaq. Səhv etmərik.

Adətən yubilyar haqqında yazanda nədənsə titullar sadalanır, mənəvi dəyərlərin üzərində az dayanılır. Axı biz, ilk növbədə canlı insanlarıq. Hamıdan mərifət, həssaslıq, qayğıkeşlik umuruq. Kamal müəllim Mətbuat Şurasına səmimi bir ab-hava gətirdi, idarə heyəti yığıncaqlarının səyyar keçirilməsinin bünövrəsini qoydu. Novxanıda, Xəzər sahilinə yaxın bağ evinə hamımızı topladı. İdarə heyətinin üzvlərindən Hacı Sabirin ibrətamiz söhbətlərini dinlədik, Bəxtiyar Sadıqov mətbuatda publisistik yazıların azalması meyillərindən gileyləndi, Vüqar Rəhimzadə mətbu reketçiliyə qarşı mübarizənin gücləndirilməsi zərurətindən söhbət açdı, Rəşad Məcid dil məsələlərinə toxundu Umud Rəhimoğlu ABŞ səfərindən, təşkilatının BMT-dəki aidiyyəti olan qurumlarla yaratdığı əlaqələrindən danışdı. İlk səyyar iclasda diqqəti çəkən peyzajı seyr edəndə dedim: “Belə şəraitdə şair də, yazıçı da, alim də... olmamaq günahdır”.

Kamal müəllimin 70 illik yubileyi mənə on il əvvəli xatırlatdı. Onda zirəklər irəli düşüb tədbirlərini düzənlədilər, mətbuatda xeyli yazı təqdim olundu. Qrafikin sıxlığı, həm də adına layiq yubiley məclisi keçirmək istəyi tədbirimizi növbəti ilə təxirə salmağı diktə etdi. 16 fevral 2011-ci ildə Mətbuat Şurasında dost mərasiminə yığışdıq. Tədbirdə şuranın idarə heyətinin üzvləri, ölkənin tanınmış, ictimai fikrə təsir göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri və ictimai xadimlər iştirak edirdilər. Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Yaradıcılıq Fondunun sədri, 215 məqalə, tezis, esse, ön söz, rəy, elmi söhbətin, onlarca şeirin, hekayənin, pyesin, romanın, xarici ölkə yazıçılarının əsərlərindən tərcümələrin müəllifi Kamal Abdullanın elmi maraq dairəsinin əsasən dilşünaslığı, ədəbiyyatşünaslığı və türkologiyanı əhatə etdiyini deyərək jurnalistika ilə bağlı fikirlərinin də xüsusi əhəmiyyət kəsb etdiyini dilə gətirdim. Bu üç qütb haqqında yubiley günlərində daha əhatəli söhbət getdiyindən, tədbir iştirakçılarını Kamal Abdullanı media ilə bağlayan cəhətlər ətrafında diskussiyalara dəvət etdim: “Kamal müəllim Mətbuat Şurası fəaliyyətə başladığı ilk gündən aktiv tərəfdaşlarımızdandır. Ölkə jurnalistlərinin üç qurultayında jurnalistlər ona etimad göstəriblər. Şuranın elə təşəbbüsü olmayıb ki, hərtərəfli dəstək göstərməsin. Təkcə kütləvi informasiya vasitələrinin dili ilə bağlı məsələləri qeyd etmək istərdim. Bu mövzuda ilk ümumrespublika konfransının fəal təşkilatçılarındandır. Tədbir o zamanlar Kamal müəllimin rektor olduğu Bakı Slavyan Universitetində keçirilib. Bütün bunlar Kamal Abdulla yaradıcılığının media ilə bağlı tərəflərindən söhbət açmaq üçün kifayət qədər dolğun əsaslar verir”. Sonra yubilyara şuranın təbrik plaketini və xatirə hədiyyəsini təqdim etdim.

Mərasimdə səslənən çıxışların hər biri səmimiyyətə köklənmişdi. Uşaqlıq dostu Zeynal Məmmədlinin Kamal Abdullanı sevməyə əsas verən on səbəb barədə çıxışına indi ondan söhbət açan 564 səhifəlik kitabda rastlaşmağımı məntiqi sayıram. Zənnimcə, günümüzün hər bir oxucusunun həmin on bəndlə tanışlığı faydalı olardı.

Dilçi deyiləm, ədəbiyyatşünas da deyiləm və nə şairəm, nə nasir. Oxucuyam və başqa oxucuların da Kamalı yaxından tanımasında maraqlıyam. Sevib-sevməmək, anlayıb-anlamamaq hər kəsin öz işidir. Şəxsən mən onu adiliyə sığmazlığın - fenomenliyin parlaq örnəyi sayıram. Niyəsini sadalayım:

1. Onun lüğətində nifrətə yer yoxdur. Nifrət ondan ötrü doğub-törəməz, qısır və ziyanlı anlayışdır. Adilik - normallıq hüdudlarında var olan insan nifrətdən də yanacaq kimi faydalanır.

2. Sevgi həm də coşduran, yayılan, sevdirən, özünə alternativ tanımayan sevgi onun tapınağıdır, güc və qüdrət, həm də anlayıb-anlatmaq qaynağıdır. Dərdi də sevir, həmdərdi də. Çarə də tapır.

3. Zamana özgür yanaşması var; nə saniyə gözündən qaçır, nə də yüzillər, minilliklər. Ondan ötrü keçmiş, indi və gələcək yanaşıdır, yan-yanadır.

4. Müdhiş empatiyası (empatisi) var. Dədə Qorqudu da gözündən oxuyur, kralları, şahları da, məhəllə insanlarını da.

5. Sirtapan sirsaxlayan, siryaradan, sirraçan, oxucunu sirlər dolanbacında qarış-qarış gəzdirib müdrikləşdirəndi.

6. Ozandır. Söyləyir, söylədir, yönəldir. Sözün yerini, sazın zamanını, məkanını, personajlarının dilini-feilini dərindən bilir.

7. Bilgindir. Məntiqi, düşüncəsi, üsulu, nəticəsi yerli-yerində, predmeti və amacı göz önündə.

8. Dostdur. Ölüyə-diriyə fərq qoymaz, bir masa başına yığıb, “əvvəl-axır yazılanlar”dan, deyilənlərdən agah edər, dərdi saxlayıb, sevincini paylaşar.

9. Laməkandır, lazamandır. Məkanı da aşar, zamanı da. Göylə yer, keçmişlə indi arasında gəzib-dolaşdırmaqdan həzz alıb-aldırar.

10. Müdrikdir. Ağıllardan ağıl alıb öz ağlıyla müdrik olanlardandır. Gizli Dədə - Qorqudun ta kəndisidir.

Xalq yazıçısı Kamal Abdulla haqqında çox yazılan şəxslərdəndir. Həyat və fəaliyyətinin zənginliyinə, çoxşaxəliliyinə görə hələ ki, onun tam obrazını işıqlandıran nümunəyə rast gəlməməyimiz üzürlüdür. Zənnimcə, sadəcə çıxış yolunu onun barəsində monoqrafiya yazılmasında görürəm. İnanmayanlara, cəhlə hazır dayananlara Türk Ədəbiyyatı Yayımları Vəqfinin İstanbulda nəşr etdirdiyi “Mifoloji Elçisi Kamal Abdulla Ərmağanı” kitabını diqqətlə oxumalarını məsləhət görərdim. Nəşrin çəkisi mənə yükünə uyğun gələndi. Ahmed V.Ercisalasun (Türkiyə) “Ön söz əvəzi: Kamal Abdulla 70 yaşında” yazısından da bəlli olur ki, kitab əzizimizin yubileyinə dost töhfəsidir.Yetkin cəmiyyətin mənəvi tələblərinə uyğun gələn əsərlərə xeyir-duasını əsirgəməyən Şeyxülislam Allahşükür Paşazadənin “Uca və mərhəmətli Allahın adıyla!” yazısının ilk cümləsi sübut edir ki, Qafqaz müsəlmanlarının dini rəhbərinin fikrincə, vaxtilə Prezident Administrasiyasında multikultural dəyərlərlə bağlı vəzifə Kamal Abdulla simasında işgüzar, məsuliyyətli bir insana həvalə olunub: “Azərbaycanın tanınmış alimi və ictimai-siyasi xadimi Kamal Abdulla elə şəxsiyyətlərdəndir ki, barəsində zirvədəkilər anlamı işlədilir. Vətənimiz Azərbaycan naminə çoxşaxəli, nəcib fəaliyyətində yüksək peşəkarlığı və vətənpərvərlik örnəyi yarada bilmiş, ölkəmizin ictimai-siyasi, elmi-mədəni, ədəbi və təhsil ictimaiyyətinin seçilən şəxsiyyətlərindən olan Kamal Abdulla müxtəlif ali məqamlarda öz dəstxətini yaratmaq iqtidarında olmuşdur”.

Xeyir-duadan da aydın görünür ki, Avstraliyanı çıxmaqla digər qitələrdə yaşayan söz sərrafları K.Abdullanı həvəslə səciyyələndirməyə amadə dayanıblar. Onlar kimlərdir? 123 yazını və müəllifi xarakterizə etmək imkan xaricində olduğundan təhlillərə konkret müəlliflərin təmsilçisi olduqları ölkələrdən başlayaq. Maraqlıdır ki, yubilyar barədə materialların təxminən yarısı Azərbaycanın və Türkiyənin söz sənəti ustalarının payına düşür. Çünki Kamal Abdullaya qardaş Türkiyədə də bizdəki qədər maraq və rəğbət mövcuddur. Bu özü nüfuz göstəricisidir.

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar “Ad günün mübarək, Kamal!” yazısında çox-çox illər bundan əvvəl Moskvada təhsil alan azərbaycanlı tələbələrlə görüşdə barəsində məruzə edən aspirantın orijinal mülahizələrini yada salır. Bu gənc Kamal idi. AYB sədri aspirantın özünü sonralar ciddi dilçi, tənqidçi kimi təsdiqlədiyini, bədii yaradıcılıqla məşğul olduğunu, hekayələr, povestlər, romanlar, pyeslər, şeirlər yazmağa başladığını, qısa zamanda xarici ölkələrdə nəşr olunduğunu yazır.

Osman Fikri Sertkaya isə “Kamal Abdulla için” təəssüratlarını bölüşür: “Kamal Abdulla o kadar kuvetli bir kaleme sahib ki, okuyan romanını gerçek sanıyor... Kamal Abdulla boyuk bir insandır. Akademisyendir. Xocadır, idareçidir, yazardır, romançıdır, araşdırıcıdır”.

Mənə elə gəlir ki, Kamal Abdullanı qardaş ölkəyə, türkdilli dövlətlərin xalqlarına belə geniş məkanda sevdirən “Kitabi-Dədə Qorqud”un aramla, inamla təbliğinə, tədqiqinə göstərdiyi müstəsna xidmətlərdir. Alim, tədqiqatçı bunu həvəs naminə etməyib. Türk dünyasını birləşdirən qaynaqlar sırasında eposun öz üzərinə daha ağır yük götürmə qabiliyyətini hesablaya bilib. Beləcə, qədim türk dilinin araşdırılması, çatdırılması prosesi yeni mərhələyə qədəm qoyub. Xalq şairi Sabir Rüstəmxanlı “Qorqudşünaslığın Yeni zirvəsi və ya Kamal Abdulla fenomeni”, Rəhman Bədəlovun “Dədə Qorqud rabitəsi”, Ramazan Korkuzun “Dede Korkutun çakdaş yüzü: Kemal Abdulla”... yazıları, təhlilləri bunun təsdiqi deyilmi!? Fərəhli haldır ki, qarşılıqlı vəhdət Avropada da Qorqudşünaslığın sərhədlərinin genişlənməsinə təsirsiz ötüşməyib. Almaniyadan Ziqmende Harimanın “Kitabi-Dədə Qorqud və Nibelunqlar nəğməsi”ndə ideyalara dəstək verilir. Burada bunu da vurğulamağı özümə borc bilirəm ki, Azərbaycanda türk yazarlarından əlavə fikirləri yer alan 22 ölkə təmsilçiləri arasında almanlar sayca birincidir (7 yazı). Henrik Boyeşeton “İki yarımçıq əlyazma - qarşılaşdırma”da müqayisələr aparır. Florian Runn “Kamal Abdulla və dastanın rezonansı”ndan danışır, Orhan Aras isə “Kamal Abdulla və Şarkın sırları”nın təhlilini verir...

Fransız müəlliflərinin və tədqiqatçılarının Kamal Abdullaya ruslar qədər maraq göstərməsi təsadüfi deyil. Kitabda hər birinin 6 yazısı yer alıb. Fransanın ölkəmizdəki səfirliyinin təşəbbüsü ilə “Yarımçıq əlyazma” kitabının müzakirəsində onların aldıqları xoş təəssüratı yaxşı xatırlayıram. Jean-François Mançelin “Ürəkdən təbrik”i, Esk Hart Hötzelin “Azərbaycan dilinin və mədəniyyətinin təmsilçisi Kamal Abdulla” sərlövhəli yazılara da səmimiyyət xasdır.

Alimə Dillər Universitetinin rektorluğunun etibar edilməsi kitabdakı materiallardan da aydın görünür ki, tamamilə düz seçimdir. K.Abdulla xarici ölkələrin ünlü ziyalılarının Azərbaycan tədris müəssisələri ilə yaxınlığının əsasını qoyub. Yaratdığı Jurnalistika fakültəsinin məzunları həmin dövlətlərdə də missiyalarını uğurla yerinə yetirməkdədirlər. Şəxsən orada düzənlənən bir sıra beynəlxalq seminar və konfransların iştirakçısı olmuşam. Kamal müəllimin mükafatlar kolleksiyasında Balkanların, Pribaltikanın, Orta Asiyanın ödüllərinin olması iftixar hissi doğurur. Onların yubileyə biganə qalmadıqlarını kitaba Kamal müəllimi səciyyələndirən Rusiyadan 6, Polşadan 3, Macarıstan və Rumıniyadan 2, həmçinin Serbiya, Çexiya və sair ölkələrdən yazıların daxil edilməsi təsdiqləməkdədir. ABŞ, İndoneziya, Yaponiya, İran alimlərinin yazılarını oxuyanda həmyerlimizin Azərbaycanın hüdudlarından da kənarda necə sevildiyini, hörmət sahibi olduğunu görürsən.

Kamal müəllim, biz yenə görüşəcəyik və 70 illik yubileyinizi sanballı auditoriyada qeyd edəcəyik. Hələlik isə Sizə xoş duyğularımızı yetirərək qarşıdakı günləri sayaq.

***Əflatun AMAŞOV,***
***Azərbaycan Mətbuat Şurasının sədri***

## Ekologiya

# Atmosferi avtomobillərin dəm qazından necə qorumalı

### İndi bütün dünyanı düşündürən bu sualın cavabı Azərbaycan üçün də aktualdır

**Məlumdur ki, neçə illərdir qlobal avtomobil sənayesi havanın çirkliliyi və qlobal iqlim dəyişikliklərinin yaratdığı problemlərlə əlaqədar çox ağır böhran yaşayır. Məhz bu səbəbdən 2015-ci ilin dekabrında Parisdə 195 ölkə nümayəndələrinin qəbul etdikləri ilk Qlobal İqlim Sazişi imzalanmışdır.**

21-ci əsrin ilk böyük çoxtərəfli müqaviləsi olan bu sazişlə hökumətlər qlobal istiliyin orta səviyyəsinin 2 dərəcədən aşağı səviyyədə qalması və artımın 1,5 dərəcəyə qədər məhdudlaşdırılması, iqlim dəyişikliyinin risk və təsirlərinin əhəmiyyətli dərəcədə azaldılması barədə uzun dövrü əhatə edən qərar qəbul etmişdir. Sənəddə həmçinin ətraf mühitin çirklənməsinin pik həddə çatmaması üçün müasir texnologiyaların qısa müddətdə tətbiqi hesabına tullantıların azaldılması tələb olunmuşdur.

Müasir dövrdə ətraf mühitin həddindən artıq çirklənməsi və Yer kürəsində temperaturun getdikcə yüksəlməsi ilə bağlı meydana çıxan problemlər dünya enerji istehsalında payı 90 faizdən çox olan karbohidrogen tərkibli yanacaqların yerüstü, dəniz və hava nəqliyyatının, traktorların və iş maşınlarının daxiliyanma mühərriklərində, qaz turbinlərində və təbii qazla işləyən elektrik stansiyalarında tətbiq olunan mövcud yanma metodunun təkmilləşdirilməsini tələb edir. Bu güc qurğularında tətbiq edilən mövcud yanma mexanizminin xüsusiyyəti yanmadan öncə yanacaqla havanın bir-birinə mümkün qədər homogen (bircinsli) qarışdırılmasına üstünlüyün verilməsidir. Məlumat üçün bildirək ki, homogen yanacaq-hava qarışığının həm benzin, həm də dizel mühərriklərində tətbiq olunma şərtinin bünövrəsi zəncirvari yanma reaksiyaları mexanizminin kəşfinə görə Nobel mükafatına layiq görülmüş akademik N.Semyonovun adını daşıyan Rusiya EA Kimyəvi Fizika İnstitutu (KFİ) tərəfindən qoyulmuşdur.

Təxminən 70-75 il əvvəl SSRİ Elmlər Akademiyası ilə Dövlət Elm və Texnika Komitəsinin (ETK) hökumətə verdiyi təklif əsasında dünyada ilk dəfə olaraq elmi kəşflərin qeydiyyatını aparmaqla müəllif hüquqlarının qorunmasına qərar verilmiş və SSRİ-nin süqutuna qədər 375 elmi kəşf qeydiyyata alınmışdır. Onların arasında KFİ-nin əməkdaşı, texnika elmləri doktoru L.A.Qussakın “LAQ-Proses” adlandırılan elmi kəşfi diqqəti daha çox cəlb edir. Həmin bu kəşfə görə, mühərrikin silindrinə daxil olan hava və yanacaq bir-biri ilə mümkün qədər homogen qarışdırılır və bu zaman elektrik şamının ətrafında həcmi yanma kamerasının həcminin 2-3 faizindən çox olmayan kiçik bir əlavə kamerada (forkamerada) təxminən 50 faiz havası olan zəngin qarışıq alınır. Zəngin qarışıq şamla yandırılandan sonra əmələ gələn kimyəvi aktiv natamam yanma məhsulları və yanma kamerasındakı kasıb homogen hava-yanacaq qarışığını alışdırır və bununla benzin mühərriklərinin dizellər kimi kasıb tərkibli qarışıqla işləməsi təmin edilir. Bu isə yanacağa qənaət edilməsi, deməli, həm də havaya atılan dəm qazının azalması deməkdir.

Yeri gəlmişkən qeyd edək ki, keçən əsrin 70-ci illərindən başlayaraq benzinlə çalışan yük və minik avtomobillərinin yanacaq sərfini azaltmaq məqsədilə “LAQ-Proses”dən istifadə etmək üçün hökumətin qərarı ilə müxtəlif layihələr həyata keçirilmiş, lakin istənilən nəticələri əldə etmək mümkün olmamışdır. Bunun əsas səbəbləri kiçikhəcmli forkameranı zəngin qarışıqla stabil təmin etməyin çətinliyi və ana yanma kamerasında yanacaqla havanın bir-birinə homogen qarışdırılmasının tələb edilməsi olmuşdur.

Bu sətirlərin müəllifinin diplom işindən başlayaraq 1964-ci ildə namizədlik, 1981-ci ildə isə doktorluq dissertasiyalarının mövzusu sözügedən kəşfin tətbiqinə həsr olunduğu üçün “LAQ-Proses” yanma mexanizminin müsbət və mənfi cəhətlərini aşkar etməyə imkanı olmuşdur. Namizədlik dissertasiyasında kiçikhəcmli forkameranı zəngin qarışıqla təmin etməyin sadə bir yolu göstərilmişdir. Bu barədə Moskvada nəşr edilən “Avtomobil Sənayesi” jurnalında müəllimim N.Kərimovla birlikdə dərc etdirdiyimiz məqalədə verilən informatik biliklər əvvəlcə Qorki Avtomobil Zavodunun (QAZ), sonra isə KFİ-nin diqqətini çəkmişdir. Bundan sonra Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) Daxili yanma mühərrikləri kafedrası bizimlə təsərrüfat müqavilələri əsasında ortaq elmi-tədqiqat işlərinin aparılmasına razılıq vermişdir. Bununla da dünyada ilk dəfə “Güc qurğularında yanma və partlamanın nəzəri əsasları”nı yaradan, Nobel mükafatlı N.Semyonov, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, azot oksidlərinin yaranma mexanizmini kəşf etmiş akademik Y.Zeldoviç, akademiklər Q.Barenblatt və V.Libroviç, professorlar V.Karpov və S.Voinov kimi dünya şöhrətli alimlərin dəstəyi ilə L.A. Qussakın KFİ-dəki laboratoriyasında elmi-tədqiqat işlərinə başlanılmışdır. Bu çalışmalarla aşkar edə bildik ki, “LAQ-Proses”də iddia edildiyi kimi, yanma kamerasında yanacaqla havanın bir-birinə homogen qarışdırılması əvəzinə kameranın tam həcmində yer alan havanın təxminən yarısı daxil olmuş yanacağın hamısı ilə qarışdırılaraq zəngin qarışıq yaradılmalı, havanın qalan 50 faizi isə yanma başlayanadək yanacaqla qarışdırılmamış qalmalıdır. Bu halda yanma prosesi iki mərhələdə cərəyan edir: ilk mərhələdə zəngin tərkibli qarışığın yanması nəticəsində tam yanma məhsulları ilə yanaşı, natamam yanma məhsulları da yaranır. İkinci mərhələdə bu məhsullar hava ilə qarışaraq yanma prosesini sürətlə davam etdirir. Həmin yolla gerçəkləşdirilən yanma prosesi yanma sürəti və təzyiqinin 12-15 faiz artmasına səbəb olur. Ən əsası yanacaqdan ayrılan istiliyin miqdarı 96-98 faiz yüksəlir (homogen qarışıq yandıqda 88-92 faizdən çox olmur), ziyanlı qaz emissiyası, xüsusi olaraq azot oksidlərin yaranma miqdarı isə minimum həddə olur.

Yeri gəlmişkən qeyd edək ki, əldə etdiyimiz bu yeni tədqiqat əsasında ilk ixtiramız bir qədər genişləndirilərək Sovet Elm və Texnika Komitəsinin qərarı ilə ABŞ, İngiltərə, Fransa, Yaponiya, İtaliya və Almaniyada patentləndirildi. Patentlər elan olunar-olunmaz, bu əqli mülkiyyəti satın almaq üçün ABŞ avtomobil nəhəngi FORD və Avstriyanın AVL şirkətlərindən müraciətlər daxil oldu.

Məlum olduğu kimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev respublikamızda avtomobil sənayesinin yaradılması üçün uzun müddət mübarizə aparmış və nəticədə Sov.İKP MK Siyasi Bürosunun qərarı ilə Gəncə Avtomobil Zavodunun tikintisinin başlanmasına nail olmuşdur. Bu dövrədək Gürcüstan və Ermənistanda avtomobil zavodlarının fəaliyyət göstərməsinə baxmayaraq, dünyada ilk dəfə nəqliyyat vasitələri üçün motor yanacaqları istehsal edən Azərbaycanda belə istehsal müəssisəsinin yaradılmasına mərkəzdən imkan verilməmişdir. Təəssüf ki, SSRİ-nin süqutu ilə Gəncə Avtomobil Zavodu da fəaliyyətə başlaya bilməmiş və 1992-ci ildə 120 min avtomobil istehsal etməli olan müəssisənin istifadəyə verilməsi yarı yolda qalmışdır.

Siyasi müstəqilliyimizdən sonra hakimiyyətə qayıdan Ulu Öndər bir çox sahələr kimi avtomobil sənayesinin də bərpası ilə əlaqədar çalışmalara başladı. Onun tapşırığı ilə ilk olaraq qonşularımız - qardaş Türkiyə və İranın avtotraktor sənayesi şirkətləri ilə tanış olaraq onlardan yararlanmaq imkanlarını araşdırdıq. Bəlli oldu ki, xarici şirkətlərin lisenziyaları əsasında fəaliyyətə başlamış Türkiyə və İran müəssisələrində istehsal edilən avtomobil və traktorlar müasir dövrün texniki səviyyəsindən geridə qalmış motor texnologiyasına sahibdir. Bu halda qazandığımız elmi nailiyyətləri qardaş ölkələrdə tətbiq etmək üçün Türkiyədə İstanbul Texnik Universiteti və Orta Doğu Texnik Universiteti sənaye mərkəzləri - FORD-OTOSAN və TOFAŞ, İranda Təbriz Texniki Universiteti, senaye mərkəzləri - Motor Sazan, TraktorSazi, Meqa Motor firmalari ilə görüşlər, seminar və konfranslar keçirərək istehsalda olan mühərriklərin modernləşdirilməsi ilə məşğul olmaq haqqında ortaq layihələr həyata keçirməyə başladıq. Türkiyənin ozamankı Prezidenti Süleyman Dəmirəlin təklifi və dəstəyi ilə Qara Dəniz ölkələri universitetleri birliyi yaradıldı və AzTU da bu birliyin üzvü oldu. Sovet dönəmində VAZ (Tolyatti) ilə yarı yolda qalmış motor layihəmizi TOFAŞ və DAÇİA (Rumıniya) şirkətlərinin istehsal etdikləri mühərriklərin təkmilləşdirilməsinə yönəltməyə qərar verdik. Təəssüf ki, müxtəlif səbəblər üzündən nəzərdə tutduğumuz işləri tamamlaya bilmədik.

Əvəzində Türkiyə Respublikası Müdafiə Sənayesi Nazirliyi və İstanbul Texniki Universitetinin birgə dəvəti əsasında 2001-ci ildən 20 il boyunca qardaş ölkədə fəaliyyət göstərərək avtomobil və motor sənayesi üçün yerli elmi-texniki mütəxəssis və mühəndislərin hazırlanmasında iştirakçı oldum. Lisenziya vaxtı bitmiş xarici ölkə texnologiyalı avtotraktor motorlarının modernləşdirilməsi və yeni nəsil mühərriklərin yaradılması mövzularında bir çox dövlət dəstəkli elmi-tədqiqat layihələrini həyata keçirdim. Eyni zamanda Prezident İlham Əliyevin cəsarətli və əzmkar fəaliyyəti sayəsində Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, müasir İpək yolunun dəniz və dəmir yolu marşrutlarında çalışacaq lokomotiv və gəmilər üçün daha əlverişli və işlənmiş qazları az zərərli olan ağır dizel motorlarının modernləşdirilməsi ilə bağlı dövlət əhəmiyyətli layihələrin elmi-tədqiqat işlərinə rəhbərlik etdim.

Türkiyədə ən diqqətəlayiq işlərdən biri İstanbul Texnik Univesiteti və MOTOSAN şirkətinin dövlət dəstəkli layihəsi çərçivəsində 2005-ci ildə Türkiyədə bir ilk olaraq 100 faiz yerli imkanlarla 3 silindrli, üstdən idarə olunan 4 klapanlı, qaz turbinli, ara soyuduculu, qaz emissiyası bu günün standart səviyyəsində olan yeni nəsil yerli dizel mühərrikini istehsal edə bilməyimizdir. Bununla Türkiyədə nəinki avtotraktor, hətta tank motoru istehsal etmək üçün lazımi elmi potensialın və bacarıqlı mühəndisləri olan sənayenin olduğunu ortaya qoyduq. Türkiyədəki ikinci işimiz isə yenə də dünyada bir ilk olaraq TÜMASAN traktorunun 100 faiz maye qaz yanacağı LPG ilə də işləyə bilmə üsulunun - yeni üstün motor texnologiyasının sənayedə tətbiqi oldu.

Hazırda Volskwagen, Peugeot, Renault, Nissan və s. dizel motorlu avtomobillərin azot oksidləri ilə zəngin olan (normadan 10-20 dəfə çox) işlənmiş qazları zəhərli kimyəvi duman yaratdığı üçün istehsalları dayandırılmaq ərəfəsindədir. Bu şirkətlərin istehsal etdikləri benzinlə işləyən avtomobilləri də benzin sərfiyyatının və işlənmiş qazlarla atmosferə atılan karbon qazının normadan çox olması ile seçilir. Ona görə də Avropanın Paris, London, Düsselldorf və s. kimi mərkəzi şəhərlərində dizel və benzinlə çalışan avtomobillərin istifadəsi tədricən dayandırılır. Hazırda həmin şəhərlərin küçələrində Avro 6 standartına cavab verən avtomobillərin istifadəsinə icazə verilir.

Homogen yanacaq-hava qarışığının yanma mexanizminin qüsurlarını hələ 1981-ci ildə bildirmiş olsaq da, bu gün də qlobal avtomobil sənayesinin hegemonluğunu əlində tutan avropalı mütəxəssislər çıxış yolunu elektrik avtomobillərinin istehsalında görürlər. Bu isə heç də asan və ziyansız texnologiya sayılmır. Əvvəl onu nəzərə almaq lazımdır ki, bu gün inkişaf etmiş ölkələrdə istehsal edilən elektrik stansiyalarının ümumi gücü daxiliyanma mühərrikləri ilə işləyən yerüstü, dəniz nəqliyyat vasitələrinin, traktor və iş maşınlarının birgə gücündən 25-30 dəfə azdır, yəni sadəcə yerüstü nəqliyyat vasitələrini elektrikli avtomobillərlə əvəz etsək, kəskin elektrik çatışmazlığı ilə üzləşərik. Digər tərəfdən, elektrik enerjisinin çoxu istilik və atom stansiyalarında hasil olunur ki, onların da ətraf mühitə ziyanlı təsiri heç də mühərriklərinkindən az deyil. Bundan başqa, ən güclü qələvi metal olan lityum, alüminium və kompozit kimi çətin istehsal edilən materiallardan hazırlanan akkumlyator batareyalarının istismar müddəti bitdikdən sonra təkrar emalı mümkün deyil. Onların tullantı qalıqları isə atom elektrik stansiyalarından atılan qalıqlardan da ziyanlıdır. Elə bu batareyaların istehsalı zamanı ətraf mühitə atılan karbon qazının miqdarı da daxiliyanma mühərriklərindən çıxan karbon qazından 50-60 faiz çox olur. Bir sözlə, dünya enerji istehsalında 90-95 faiz payı olan daxiliyanma mühərriklərinin (DYM) 160 il bundan əvvəl kəşf olunmasına baxmayaraq, faydalı iş əmsalına görə hazırda onu əvəz edə biləcək başqa bir güc qurğusunu tapmaq mümkün deyil.

60 ildən artıq zaman ərzində DYM sahəsində apardığımız elmi araşdırmalar, 35-dən artıq qeydiyyatı aparılmış elmi-texniki ixtiralar, müxtəlif ölçülü və konstruksiyalı mövcud həm benzin, həm də dizel mühərriklərinin təkmilləşdirilməsi və A-dan Z-yə qədər yeni mühərrikin layihələndirilməsi, prototip olaraq istehsal edilib sənayedə tətbiqi üçün müxtəlif testlərin aparılması nəticəsində qazanılmış təcrübə isə qlobal avtomobil sənaye sektorunu bu gün çətin vəziyyətdə qoyan ekoloji problemləri həll etməyə imkan verir.

Bu baxımdan Prezident İlham Əliyevin ölkəmizdə qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı üçün “Azərmaş” Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılması ilə bağlı qəbul etdiyi qərarın mühüm əhəmiyyəti var. ASC-nin bu müəssisədə “Made in Azerbaijan” brendi ilə regionun avtomobil istehsalı sənayesi mərkəzinə çevrilmə strategiyası qəbul edilmişdir. Neft sənayesi qədər əhəmiyyətli olan bu strategiyanın həyata keçirilməsi sayəsində Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş ölkələr səviyyəsinə yüksələ biləcək. Bununla da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin növbəti arzusu reallaşmış olacaq.

Onu da qeyd edək ki, bu möhtəşəm strategiyanın uğurla həyata keçirilməsi üçün ötən ilin əvvəlində “Qlobal avtomobil sənayesinin bu günü və sabahı: yanacaq və ətraf mühit problemləri, “Azərmaş” ASC strategiyasının gerçəkləşdirilməsi üçün elmi tövsiyələr” mövzularında iki elmi-tədqiqat layihələri hazırlayaraq hökumətə təqdim etmişik. Həmin layihələr Energetika və İqtisadiyyat nazirliklərində müzakirəyə çıxarılmalı idi. Lakin nazirliklərdən verilən məlumata görə, layihələrin müzakirəsi koronavirus pandemiyasına görə müvəqqəti təxirə salınmışdır. Həmin layihələrlə bağlı qısaca bildirək ki, istehsalın digitallaşdırıldığı 4-cü sənaye inqlabının ölkəmizdə mövcud olan imkanlardan və müxtəlif ölçülü həm benzin, həm də dizel mühərrikləri üzərində “MR-Proses” yanma mexanizminin tətbiqi ilə qazanılmış bilik və təcrübədən istifadə etməklə qısa zaman ərzində “Azərmaş” ASC-nin sözügedən strategiyasını gerçəkləşdirmək mümkündür. Bu isə o deməkdir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft kəməri, “Cənub qaz dəhlizi”, Baki-Tbilisi-Qars dəmir yolu layihələri kimi əhəmiyyətli olan “Azərmaş” layihəsini də dünyaya nümayiş etdirəcək və bununla da ekoloji təsirinə görə krizis dövrü yaşayan qlobal avtomobil sənayesinin dirçəlməsinə öz töhfəsini verəcək.

***Rafiq MEHDİYEV,***
***texnika elmləri doktoru, professor,***
***Beynəlxalq Şərq Neft Akademiyasının (Azərbaycan),***
***Beynəlxalq KEYS Akademiyasının (ABŞ) və Beynəlxalq Avtomobil Mühəndisləri Cəmiyyətinin (ABŞ) üzvü***

# “Azercell”in dəstəyi ilə fəaliyyət göstərən “Uşaq Qaynar Xətt” xidmətinə 2020-ci il ərzində 6657 müraciət daxil olub

Cəmiyyətin ən həssas, ən çox qayğı və diqqət tələb edən təbəqəsi uşaqlardır. Ölkəmizin parlaq gələcəyi üçün uşaqların sağlam mühitdə, qayğısız və problemsiz böyümələrini təmin etməliyik.




“Azercell”in dəstəyi ilə fəaliyyət göstərən “Uşaq Qaynar Xətt” xidməti koronavirus pandemiyasının (COVID-2019) nəticəsi olaraq elan edilmiş qlobal sağlamlıq böhranı dövründə gücləndirilmiş iş rejimində çalışaraq ötən il 6657 uşağa yardım edib.

On ildən artıqdır ki, fəaliyyət göstərən “Uşaq Qaynar Xətt”i müxtəlif təzyiqlə üzləşən, hüquqları pozulan uşaq və yeniyetmələrə dəstək olub onları psixoloji və fiziki travmalardan qorumağa çalışır. Xidmətin əməkdaşları uşaqlara və övladları ilə bağlı müəyyən problem yaşayan ailələrə həm sosial xidmət göstərir, həm də hüquqi və psixoloji yardım edir.

“Qaynar Xətt”ə daxil olan müraciətlər müxtəlif sahələri əhatə edən sual və problemlər ilə bağlı olur. Ötən il zənglərin bir çox hissəsi - 3602 müraciət təhsil sahəsi ilə əlaqədar olub. Xidmətə hüquqi sahə ilə bağlı 909, psixoloji problemlərlə bağlı 668, sosial sahəyə aid 501, səhiyyə sahəsi ilə bağlı 388 müraciət daxil olub. Zənglərdən 589-u digər sahələrə aiddir.

2020-ci ildə xidmətə müraciət edən qızların sayı üstünlük təşkil edib ki, zənglərin 3494-ü qızlardan, 3129-u isə oğlanlardan daxil olub. Bu müraciətlərdən 5499-u 18 yaşdan yuxarı, 1124-ü isə 18 yaşdan kiçik vətəndaşlar tərəfindən daxil olub. Həmçinin 2020-ci il ərzində 34 anonim zəng qeydə alınıb.

